

## “Şəhid ailələrinə olan qayğı hər zaman Prezidentin diqqətindədir”

12

# “Azərbaycan-Türkiyə əlaqələrinin bənzəri yoxdur”



7

Səs
№ 105 (6546) 15 iyun 2022-ci il. Qiyməti 60 qəpik

# 15 iyun -Azərbaycan dövlətinin xilas günüdür!





4

## Dövlət başçısının siyasətinin əsasında ədalət və humanizm prinsipləri dayanır


ICE Enforcement and Removal Operations
@ICEgovERO

Iranian native and Armenian citizen Vigen Patatanyan who recruited soldiers and provided weapons to facilitate 1992 Khojaly Massacre of ethnic Azerbaijanis removed to Armenia by @EROLosAngeles. 613 Azerbaijanis killed in massacre and 150 still listed as missing.



4

## Xocalı qatili olan Ermənistan vətəndaşı ABŞ-dan deportasiya edildi



4

## “Qurtuluşdan Şuşa Bəyannaməsinə...”




## Taksi xidmətlərinin bahalaşmasının səbəbləri nələrdir?

7

## Məktəblilər necə istismar olunur?



## Sülhməramlılarla ermənilər arasında qanlı toqquşma: ölənlər var!



# “Bu qələbə Azərbaycan idmanının tarixində qalacaq!”

*Prezident İlham Əliyev minifutbol üzrə Avropa çempionatının qalibi olan milli komandamızın üzvlərini qəbul edib*



## "Siz öz qələbənizlə göstərirsiniz ki, əgər iradə və peşəkarlıq varsa, Vətən sevgisi varsa, hətta bəziləri üçün əlçatmaz olan nailiyyətləri əldə etmək olar"

**Dünən Prezident İlham Əliyev Slovakiyada keçirilmiş minifutbol üzrə Avropa çempionatının qalibi olan milli komandamızın üzvlərini qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, bu qələbə Azərbaycan idmanının tarixində qalacaq. Çünki ilk dəfədir ki, ölkəmiz komanda idman növündə Avropa çempionu olmuşdur və bu qələbəni siz qazanmısınız, minifutbol üzrə milli komandamız:**

”Azərbaycanda idmanın inkişafı ilə bağlı çox işlər görülüb, ancaq bu günə qədər komanda idman növündə biz böyük uğurlara nail ola bilməmişik. Düzdür, bizim şahmatçılarımız iki dəfə Avropa çempionu olmuşlar, amma şahmat fərdi idman növüdür, sadəcə olaraq, komanda şəklində çıxış etmiş şahmatçılarımız bu böyük nailiyyəti əldə etmişlər. Ancaq oyun idman növlərində belə bir qələbə olmamışdır. Ona görə bu qələbənin çox böyük mənası var və əminəm ki, digər idman növləri üçün bu, çox gözəl nümunədir.

Düzdür, bu tarixi uğuru təkrarlamaq heç kim üçün asan olmayacaq, amma hər halda biz çalışmalıyıq ki, təkcə fərdi idman növlərində deyil, eyni zamanda, komanda idman növlərində də Azərbaycan idmançıları beynəlxalq yarışlarda yüksək nəticələr göstərsinlər. Bildiyiniz kimi, fərdi idman növlərində isə bizim çox böyük uğurlarımız var, Olimpiya, dünya, Avropa çempionlarımızın sayı çoxdur və əminəm ki, artacaq. Beləliklə, komanda idman növlərinin inkişafı imkan verəcək ki, idmanın inkişafı hərtərəfli olsun.

Şadam ki, komandamızın tərkibi yerli idmançılardan ibarətdir - həm oyunçular, həm məşqçilər, mütəxəssislər. Bu, məni xüsusilə sevindirir. Onu da bilirəm ki, minifutbol üzrə bizim komandamız cəmi ikinci dəfə Avropa çempionatında iştirak edir və artıq çempion tituluna layiq görülüb. Mübarizə gərgin olub, istənilən idman növündə Avropa çempionatları çox gərgin keçir. Əlbəttə ki, Avropanın ən güclü komandaları orada təmsil olunur. Çempionat boyunca göstərdiyiniz həm peşəkarlıq, deyə bilərəm ki, həm də böyük fədakarlıq bu qələbəni mümkün edib. Siz xalqımızı sevindirmisiniz və təsadüfi deyil ki, Azərbaycan vətəndaşları sizi hava limanında böyük məhəbbətlə qarşılayıblar. Mən sizi ürəkdən təbrik edirəm. Bu, doğrudan da çox böyük qələbədir, tarixi qələbədir.”








Dövlətimizin başçısı qeyd edib ki, hər dəfə beynəlxalq yarışlarda idmançılarımız qələbə qazananda hər bir vətənpərvər insan qürur hissi keçirir, hər dəfə bayrağımız qaldırılanda hər birimiz sevinirik. Prezident İlham Əliyev bildirib ki, qələbələr xalqımıza yaraşır, həm döyüş meydanında, həm idman arenalarında: ”Dövlət tərəfindən bütün şərait yaradılıb və idmanın inkişafı ilə bağlı heç bir maneə yoxdur, əksinə dövlət dəstəyi daim göstərilir. Ancaq minifutbol idman növünə gəldikdə, bizim üçün bu, nisbətən yeni idman növü olduğuna görə bu sahədəki nailiyyətləri siz özünüz qazanmısınız. Mən deyə bilmərəm ki, minifutbolçular üçün hansısa xüsusi şərait yaradılmışdır, yaxud da ki, xaricdən tanınmış mütəxəssislər, məşqçilər, legionerlər dəvət edilmişdir, yox, bunların heç biri olmayıb. Ona görə sizin qələbəniz çox böyük qiymətə layiqdir. Bu qələbəni siz özünüz qazanmısınız, əlbəttə ki, federasiya və idman mütəxəssisləri, məşqçilər və oyunçular, idmançılar, - komanda deyəndə mən bunu nəzərdə tuturam, - siz bu qələbəni halal zəhmətinizlə qazanmısınız.

Azərbaycanda idmana da, idmançılara da diqqət göstərilir. İdmançılar dövlət tərəfindən hər zaman qayğı ilə əhatə olunurlar və bu, təbiidir. Çünki idman, idmanda qələbələrimiz həm ölkəmizin beynəlxalq nüfuzunu qaldırır, eyni zamanda, sağlam həyat tərzini təbliğ edir və bu, hesab edirəm ki, daha vacibdir. Çünki hamımız istəyirik ki, Azərbaycan xalqı sağlam olsun, gənclər kütləvi surətdə idmanla məşğul olsunlar. İdmanın kütləviliyinin genişləndirilməsi və idmanda qələbələrin əldə edilməsi üçün dövlət idmançılara, klublara, federasiyalara həmişə böyük diqqət və qayğı göstərir. Əminəm ki, bundan sonra Minifutbol Federasiyamız da dövlət tərəfindən eyni qayğı ilə əhatə olunacaq.

Siz öz qələbənizlə göstərirsiniz ki, əgər iradə və peşəkarlıq varsa, Vətən sevgisi varsa hətta bəziləri üçün əlçatmaz olan nailiyyətləri əldə etmək olar. Mən əminəm ki, Azərbaycanda heç kim sizin qələbənizi gözləmirdi. Bilmirəm özünüz gözləyirdiniz, yoxsa yox, bəlkə də artıq çempionat gedə-gedə bunu hiss etməyə başlamısınız ki, bu, mümkündür. Amma əminəm ki, mən də daxil olmaqla, Azərbaycanda heç kim bu qələbəni gözləmirdi və bu qələbənin ikiqat sevinci məhz bununla bağlıdır. Yəni, bu, göstərir ki, mümkündür, ən güclü rəqibləri məğlub etmək mümkündür - əgər komanda ruhu varsa, yenə də deyirəm, peşəkarlıq, vətənpərvərlik varsa.

Bilirəm ki, bir çoxlarınız ayrı-ayrı işlərlə məşğulsunuz, sözün əsl mənasında, həvəskar idmançılarsınız və əgər belə demək mümkündürsə, minifutbol sizin üçün bir hobbidir. Sizin qarşınızda Avropanın ən güclü komandaları vardı. Əminəm ki, o komandaların maliyyə təminatı, dəstəyi və digər üstünlükləri sizinkindən qat-qat artıq idi. Amma buna baxmayaraq, qələbə qazanmısınız, hamımızı sevindirmisiniz və öz adlarınızı Azərbaycanın idman tarixinə yazdırmısınız.”

Daha sonra Azərbaycan Minifutbol Federasiyasının fəxri prezidenti Orxan Məmmədov, Minifutbol üzrə milli komandanın baş məşqçisi Elşad Quliyev, Komandanın kapitanı, qapıçı Ramil Həsənzadə çıxış edərək göstərilən diqqət və qayğı üçün Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər: Cənab Prezident, bu gün danılmaz faktdır ki, Siz xüsusilə idmana və idmançılara böyük qayğı göstərirsiniz və onları həmişə qəbul edirsiniz. Hər oyunda qələbə qazandıqca inanırdıq və düşünürdük ki, bəlkə də cənab Prezident bizi qəbul edəcək. Biz Sizə çox minnətdarıq. Doğrudan da bizim üçün çox fəxredici bir gündür. Sizə çox təşəkkür edirik, cənab Prezident.” Sonra dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olunub.

### Rəsmi xronika

Prezident İlham Əliyev Qəbələ rayonunun Ağdaş-Zarağan (40 km)-Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Minifutbol Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında Sərəncam imzalayıb.

# Azərbaycan tarixində Xilaskar olaraq əbədiləşən Ulu Öndər Heydər Əliyev




**Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqımız zamanın ağır və sərt sınaqlarından uğurla çıxıb, ölkənin gələcək inkişaf strategiyası müəyyən edilib və onun həyata keçirilməsi üçün mühüm addımlar atılıb. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən Azərbaycana rəhbərliyə qayıdışından sonra Azərbaycanda inkişafın yeni mərhələsi başlandı.**

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr nəticəsində ölkəmizdə bütün sahələrdə tənəzzül yaranmışdı. Dahi Şəxsiyyət Heydər Əliyevin siyasi kursu sayəsində Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Heydər Əliyev Şəxsiyyət, Siyasi Xadim, xalqın dayağı, onun hərəkətverici qüvvəsi olaraq Azərbaycan tarixində əsrin Lideri olduğunu təsdiqlədi. Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsi idi ki, hakimiyyətə qayıdışı ilə ölkəmizdə yeni dövrün başlanğıcı qoyuldu. Həmin tarixə qədər son illərdə baş verən hadisələr, xalqı, bütövlükdə, uçuruma sürükləyən məqamlar - istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəifləməyə başlamışdı. Belə bir zamanda xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn, Qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir damanda doğrultdu. Ulu Öndərin məqsədyönlü siyasəti ilə Azərbaycanın şanlı və silinməz tarixi yazıldı. Ölkə daxilində aparılan məqsədyönlü işlər, eləcə də, sərhədlərdən kənarda Azərbaycanın yürütdüyü siyasət müstəqil dövləti möhkəmlətdi və əbədiləşdirdi. O zaman Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlər və şirkətlər qoyacaqları investisiyaların təhlükəsizliyinə tam əmin deyildilər. Çünki Azərbaycan müstəqilliynini qazanmış olsa da, ölkədə xaos, anarxiya və özbaşınalıq baş alıb gedirdi. Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı zamanda, ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə Yeni Azərbaycan Partiyası siyasi səhnəyə gəldi. Bu, o zaman idi ki, cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu.

## ÖLKƏMİZDƏ YENİ İQTİSADİ MÜHİT, AZAD BAZAR İQTİSADİYYATI FORMALAŞDI

1993-cü ilin oktyabr ayının 3-də YAP-ın Sədri Heydər Əliyevin Prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyuldu. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsi önəmli idi ki, Ulu Öndər Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

Müstəqilliyin əvəzsiz nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi: "Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Dahi Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Dünyanın ən aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrdə, Avropanın və bütövlükdə, dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində görülən işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması idi. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoydu. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişafı kimi seçdi. Ulu Öndərin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu Sənəd, müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Heydər Əliyevin Böyük Şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görür və buna xidmət edən bütün zəruri tədbirləri həyata keçirirdi. Onun gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı.

Əlbəttə ki, müasir dünyada Azərbaycana marağın artması Ulu Öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət nəticəsində mümkün olub. İqtisadiyyatın, elmin, təhsilin və mədəniyyətin inkişafı ilə yanaşı, Heydər Əliyevin həyata keçirdiyi gender siyasəti də qısa zamanda bəhrəsini verdi. O, daim qadınların irəli çəkilməsinə önəm verirdi. Onun qayğı və diqqəti ilə Azərbaycan qadını ölkənin quruculuq-abadlıq işlərində uğurlu göstəricilərlə çıxış etməklə yanaşı, siyasi aləmdə də potensialını ortalığa qoymağa müvəffəq oldu. Xanımlarımızın dünya ölkələrində - Amerikada və Avropada Azərbaycanı təmsil etmələri, haqq səslərini qaldırıb yüksək tribunalardakı çıxışları, təbii ki, Azərbaycan qadınlarına göstərilən etimad və inam hissindən yaranmışdı.

## "2003-CÜ İLDƏN BU GÜNƏ QƏDƏR KEÇƏN DÖVR AZƏRBAYCAN SÜRƏTLİ İNKİŞAF DÖVRÜNÜ YAŞAMIŞ VƏ DÜNYADA ANALOQU OLMAYAN İQTİSADİ TEMPLƏRLƏ İNKİŞAF ETMİŞDİR"

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın böyük nailiyyətlər əldə etməsinə səbəb olub. Azərbaycan Prezidenti İlham Əliyev hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində qeyd etmişdi ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Belə də oldu. Cənab Prezidentin "Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir" - deməsi çox böyük əsaslara söykənir. 2003-cü ildən bu günə qədər keçən dövr Azərbaycan sürətli inkişaf dövrünü yaşamış və dünyada analoqu olmayan iqtisadi templərlə inkişaf etmişdir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilmişdir, 2003-cü ildə və ondan sonrakı illərdə verilmiş bütün vədlər həyatda öz əksini tapmışdır. Azərbaycan Prezidenti İlham Əliyev dünyanın ən uca kürsülərindən çıxış edərək, ölkəmizin maraqlarını müdafiə edir. Əlbəttə ki, bu uğura nail olunması üçün böyük işlər görülüb, dövlətimiz çətin və məsuliyyətli yollar keçib. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində, Azərbaycan bütün istiqamətlərdə dünyanın dinamik inkişafda olan ölkələrdən birinə, tolerant və multikultural nümunələri ilə beynəlxalq mərkəzə çevrilib. Azərbaycan dövlətinin Qurucusu və Memarı olan Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə dini, milli, etnik münasibətlərin yüksək səviyyədə tənzimlənməsi, vicdan azadlığının tam bərqərar olması naminə ardıcıl tədbirlər həyata keçirdi. Azərbaycan xalqının adət-ənənələri, milli-mənəvi dəyərləri ilə fəxarət hissi keçirən Heydər Əliyev dini abidələrə, məscidlərə ehtiyatla və böyük həssaslıqla qayğı göstərdi. Bunun nəticəsidir ki, müasir dövrümüzdə ölkəmizdə islami dəyərlər, multikulturalizm məktəbi və tolerantlıq yeni dövrünü yaşayır. Müasir dünyamızda Azərbaycan dinlərarası, millətlərarası münasibətlərdə dünya üçün örnək, tolerantlıq və dözümlülük ənənələri ilə zəngin olan dövlətə çevrilib. Ölkədə formalaşan tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən ənənədir. Ümummilli Liderin siyasi irsinin layiqli varisi və davamçısı Cənab İlham Əliyev tərəfindən həyata keçirilən alternativsiz uğurlu siyasətin nəticəsidir ki, artıq Azərbaycan mühüm nüfuzlu beynəlxalq tədbirlərə, müxtəlif idman yarışlarına ev sahibliyi edir.

İctimai-siyasi və sosial-iqtisadi həyatının müstəqillik dövrünü yaşayan Zəfər qazanmış Azərbaycan yüksək göstəriciləri və nəticələri ilə dünya dövlətləri sırasında qüdrətini daha da artırır. Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dövlət başçısının siyasətinin əsasında ədalət və humanizm prinsipləri dayanır







Azərbaycan Prezidenti İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi vətəndaşlar tərəfindən böyük məmnunluqla qarşılanır. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə də dövlətimiz tərəfindən sosial qayğıların həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onların həyat şəraitinin yaxşılaşmasına, ictimai hüquqlarının bərpa olunmasına şərait yaradılıb. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsipləri dayandığını bir daha təsdiqləyir.

## ŞƏHİD AİLƏSİ VƏ MÜHARİBƏ ƏLLƏRİNİN HƏYAT ŞƏRAİTLƏRİNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏR DAVAMLIDIR

Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində ardıcıl işlər görülür. 2021-ci ildə 3 min, 44 günlük Vətən müharibəsindən sonra isə 3500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlərlə təmin edilib və bundan sonra da veriləcək. Bu il artıq sosial cəhətdən həssas qruplardan olan ailələrə 500-dən çox mənzil verilib. Belə ki, bu il daha 1500 şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib və keçən il 3 min mənzilin bu kateqoriyalardan olan şəxslərə verilməsi proqramı icra olunub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən dövrdə ümumilikdə 12500-dən çox şəhid ailəsi və müharibə əlilinə mənzil və ya fərdi ev verilib.

## 12 REABİLİTASİYA MÜƏSSİSƏSİ QAZİLƏRİN KEYFİYYƏTLİ XİDMƏTLƏRLƏ TƏMİNATINDA ROL OYNAYIR

Müharibə əlillərinin avtomobillə təminatı tədbirləri çərçivəsində son 4 ildə də 1450-dək, ümumilikdə ötən dövrdə 7400 müharibə əlili avtomobillə təmin edilib. Bu il müharibə əlillərinə 50, 44 günlük Vətən müharibəsindən sonra ümumilikdə 200, ümumilikdə ötən dövrdə 7400 avtomobil verilib. Postmüharibə dövründə 450-dən çox şəhid ailəsi və müharibə əlilinə sanatoriya-kurort və müalicə mərkəzlərinə yollayış verilib, 41 nəfər müharibə əlili peşə reabilitasiyasına cəlb olunub, 60 qazi üçün motivasiya düşərgələri təşkil olunub.

Həmçinin həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinin Görmə qabiliyyəti məhdudluğu olan şəxslər üçün sosial reabilitasiya və bərpa şöbəsində qazilər tibbi, pedaqoji, idman, mədəniyyət və incəsənət, psixoloji, eləcə də digər sosial reabilitasiya xidmətlərinə cəlb ediliblər. Qazilərin keyfiyyətli reabilitasiya xidmətləri ilə təminatında son illərdə müasir tələblərə uyğun qurularaq təchiz olunmuş 12 reabilitasiya müəssisəsi bu sahədə mühüm potensial rolunu oynayır. Mərkəzlərdə postmüharibə dövründə 2500 qaziyə səmərəli reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib.

## ƏZALARINI İTİRMİŞ QAZİLƏRİN SON NƏSİL PROTEZLƏRLƏ TƏMİNATI PROQRAMI UĞURLA İCRA OLUNUR

44 günlük Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş 200 qazinin, ümumilikdə 300 müharibə əlilinin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı proqramı uğurla icra olunub. Postmüharibə dövründə 1400-dən çox müharibə əlili 19,3 mindən çox reabilitasiya vasitəsi ilə təmin olunub. 11 min şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub, vahid əlaqələndirmə mərkəzləri tərəfindən isə 30 min şəxsə xidmətlər göstərilib. Bütün bunlar dövlətin diqqət və qayğısıdır.

Bütün bunlarla yanaşı, 2022-ci il iyulun 1-dən ölkəmizdə əlillik sahəsində yeni meyarlar tətbiq olunacaq. Yeni meyarlara əsasən, əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi əsasında, daha əhatəli şəkildə qiymətləndiriləcək. Bu zaman şəxsin özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının məhdudlaşma dərəcəsi əsas götürüləcək.

Qeyd edək ki, şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. Şəhid ailələrinə və müharibə əlillərinə, Milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərən vətən oğullarımıza və onların ailələrində dövlət qayğısı və diqqət davamlıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Xocalı qatili olan Ermənistan vətəndaşı ABŞ-dan deportasiya edildi

**1992-ci ildə Xocalıda azərbaycanlılara qarşı törədilməsi soyqırımın təşkilində günahlandırılan (erməni əsgərlərin cəlb olunması və silahla təmin edilməsi) İran əsilli Ermənistan vətəndaşı Viqen Patatanyan ABŞ-dan deportasiya edilərək Ermənistana göndərilib.**

AZƏRTAC xəbər verir ki, bu barədə ABŞ-ın Miqrasiya və Gömrük Polisinin (İCE) İcra və Gömrük Əməliyyatları İdarəsi (ERO) məlumat yayıb. Məlumatda qeyd olunub ki, Xocalı soyqırımı nəticəsində azərbaycanlı 613 dinc sakin öldürülüb, 150 nəfər isə hələ də itkin düşmüş hesab olunur.

Miqrasiya və Gömrük Polisinin İcra və Gömrük Əməliyyatları İdarəsi ABŞ sərhədlərinin daxilində və hüdudlarından kənarda ABŞ immiqrasiya qanunlarının icrasını təmin edir. ERO ABŞ-ın milli təhlükəsizliyinə təhlükə olan, ictimai təhlükəsizliyə şərait yaradan və ya immiqrasiya sisteminin bütövlüyünü digər formalarda pozan şəxslərə qarşı immiqrasiya qanununun tətbiqi üçün fəaliyyət göstərən ən mühüm qurumlardan biridir.






# "Qurtuluşdan Şuşa Bəyannaməsinə..."

"Milli Qurtuluşdan Zəfərə doğru 29 ildir ki, yol gəlirik. Şuşa bəyannaməsi isə 44 günlük Zəfər salnaməmizə əsaslanan bir bəyannamədir. Bu bəyannamə Azərbaycan-Türkiyə dostluğunun nə qədər möhkəm və tarixi köklərə bağlı olduğunu göstərməklə yanaşı, həm də Azərbaycanın qüdrətli dövlət olduğunu dünyaya bir daha sübut etdi. Azərbaycanın 1990-cı illərdəki ağır və mürəkkəb dövrü, Birinci Qarabağ müharibəsində məğlub olmağımızın əsas səbəbi odur ki, həmin dövrlərdə güclü hakimiyyət və güclü lider yox idi. Ağır vəziyyətlərdə, döyüşlərdə mütləq liderə ehtiyac olur. Amma İkinci Qarabağ müharibəsində isə artıq güclü dövlət, güclü ordu və güclü Lider var idi. 44 günlük Zəfərimizin əldə olunmasında ən vacib faktorlardan biri də məhz Böyük Sərkərdənin olması idi". Bu sözləri SİA-ya açıqlamasında SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı açıqlamasında deyib.

Onun sözlərinə görə, Qurtuluşdan bugünə qədərki dövrdə Azərbaycan inkişaf edib, haqq səsini bütün dünyaya çatdırıb: "Müstəqilliyi əldə etmək çətindir, onu qoruyub saxlamaq daha da çətindir. Azərbaycan ədalətli dövlət kimi 30 ildə özünü bir daha sübut etdi. Dünya gördü ki, biz sülh tərəfdarıyıq və öz haqlı davamızı aparırıq. Bizim tək istəyimiz öz dədə-baba yurdumuzu geri qaytarmaq idi ki, bu problemi də özümüz həll etdik. Ulu Öndər Heydər Əliyevin ideyalarını gerçəkləşdirən cənab İlham Əliyevin iradəsi ilə artıq güclü və qüdrətli dövlət yaranıb. Bu gün vətənpərvər ruhda gəncliyimiz yetişib ki, 44 günlük müharibədə onlar öz əməlləri ilə vətənpərvərliklərini sübut etdilər. 90-cı illərin əvvəlləri ilə müqayisə etsək, o dövrdə də liderə ehtiyac var idi. O lider isə hələ 1960-80-ci illərdə böyük Azərbaycanlı kimi Vətəninə, xalqına xidmət edən Heydər Əliyev idi. Məhz ona görə də ölkənin taleyini düşünən ziyalılar və o dövrkü bacarıqsız hakimiyyət rəhbərləri Ulu Öndərə üz tutdular və Azərbaycanı düşdüyü vəziyyətdən çıxarmasını xahiş etdilər. Ümummilli Lider bu müraciətə biganə qala bilməzdi, çünki bir Liderin böyüklüyü lazımi vaxtda öz xalqının yanında olmaqdır ki, Heydər Əliyev bunu bir daha təsdiq etdi. Bunu da Azərbaycan xalqı çox yaxşı bilirdi. Ulu Öndər mürəkkəb vəziyyətdə hakimiyyətə gəldi və Azərbaycan bugünkü əbədi müstəqilliyinə qovuşdu. Əminəm ki, bu müstəqillik uzunmüddətli olacaq, bizim qələbələrimiz, zəfərlərimiz hələ qabaqdadır. Nə qədər ki, Ulu Öndərin davamçısı, xarizmatik Lider İlham Əliyev və Xalq biri-birinə güvənir, o qədər də Azərbaycan dövləti güclü, müstəqilliyi əbədi olacaq".

# Bölgənin geosiyasi mənzərəsini dəyişən

# ŞUŞA BƏYANNAMƏSİ



***Azərbaycan tarixinə əlamətdar gün kimi yazılan və 2021-ci il 15 iyun tarixində imzalanan Şuşa Bəyannaməsi dövlətçilik tariximizin ən şanlı səhifələrindəndir. Bu Bəyannamə ümumilikdə bölgənin geosiyasi mənzərəsini köklü şəkildə dəyişdi və bu baxımdan da bizim üçün mühüm mənəvi əhəmiyyət kəsb edir. Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması, sözsüz ki, gələcək dərsliklərə yazılacaq mühüm tarixi hadisə olaraq dəyərləndirilir.***

Bəyannamənin Azərbaycan xalqının Qurtuluş günündə, 15 iyun tarixində, eləcə də Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümü günündə imzalanması heç də təsadüfi deyildi. Bunun, əlbəttə ki, rəmzi mənasının olduğu da təkzib edilə bilməz və bu, belə də qəbul olunur. Sözsüz ki, cənab Prezident İlham Əliyevin Qars müqaviləsinə və 100 il bundan əvvəl baş verənlərə istinad etməsi də təsadüfi deyildi və 100 il bundan əvvəl baş tutan proseslərə oxşar halların indi də təkrarlandığı göz önündə oldu. Tarixin təkrarlanmasının, eləcə də oxşar hadisələrin yenidən baş verməsinin şahidi olduq, sadəcə bir fərq var idi ki, əgər o zaman hadisələrin nəticəsi Ermənistanın və onun havadarlarının xeyirinə başa çatmışdısa, bu gün Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyəti kimi xarakterizə olunur. Məhz ölkə başçısının, cənab Prezident İlham Əliyevin apardığı uzaqgörən, müdrik siyasət nəticəsində xalqımız düz 100 il sonra tarixi ədaləti bərpa etdi və bunun bütün dünya da şahidi oldu.

Xüsusilə qeyd etmək yerinə düşərdi ki, Şuşa Bəyannaməsi, yeni, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən Şuşada imzalanan Bəyannamə bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir və bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması, eləcə də bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzən deməkdir. Dünyanın barışmalı olduğu tarixi gercəklik odur ki, Bakı və Ankara hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliklərini 15 iyun 2021-ci il tarixində rəsmi şəkildə elan etdi və bundan sonra bütün qonşu dövlətlər, eləcə də dünya ictimaiyyəti bilməlidir ki, Azərbaycanın dövlət suverenliyini təhdid etmək fikrinə düşənlər yeni regional hərbi-siyasi blokla qarşılaşmalı olacaqlar. Ona görə də cəsarətlə deyə bilərik ki, Azərbaycan və Türkiyənin 15 iyun 2021-ci ildə atdığı tarixi addım, yəni, Şuşa Bəyannaməsi bölgənin geosiyasi mənzərəsini dəyişdi.

Şuşa Bəyannaməsi xüsusən də Azərbaycanın və Türkiyənin düşmənlərinə tutarlı mesaj olaraq dəyərləndirilir. Hər iki dövlətə qarşı olmaq niyyətinə belə düşən ölkə ilk növbədi bu yeni regional hərbi-siyasi bloku nəzərə almaq məcburiyyətindədir. Məhz ona görə qeyd olunur ki, bu Bəyannamə region üçün yeni tarixi gerçəklik deməkdir və geosiyasi mənzərəni köklü surətdə dəyişib. Bu Bəyannamə Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanın nümunəsidir olaraq artıq qəbul olunur və yaddaşlara da belə həkk olunub. Bu isə təbii ki, ən vacib məqam kimi dəyərləndirilir. Elə bu baxımdan da bir çox yerli və beynəlxalq araşdırmaçılar belə qənaətdədirlər ki, Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasındakı münasibətlərdə çox mühüm inkişafa səbəb ola bilər və əlbəttə ki, onlar bu qənaətlərində haqlıdırlar. Nəzərə almaq lazmdır ki, iki qardaş ölkənin bir-birinə daha da yaxınlaşması, müttəfiqlik münasibətləri, qardaşlığı daha böyük imlanlara yol açıq və bunu artıq bütün dünya çox yaxşı başa düşür.

Qeyd edək ki, iki dövlətin birgə ordu qüvvələri böyük hərbi güc deməkdir. Bunu da dünya ictimaiyyəti yaxşı başa düşür. Hətta artıq etiraf da olunur. Etiraf olunur ki, belə güclə artıq hamı hesablaşmalı olacaq. Ölkələrimiz arasında hərbi sahədə olan əməkdaşlıq da diqqətdən yayınan deyil. Hər iki qardaş ölkənin hərbi sahədə əməkdaşlığa verdiyi tövhələri təkzib etmək mümkünsüzdür və indi bütün dünyanın hesablaşmalı olduğu həqiqət də məhz bu reallıqdan irəli gəlir.

Bir məqama da diqqəti cəlb etmək yerinə düşərdi ki, artıq Şuşa Bəyannaməsinin parlamentlər tərəfindən qəbulu Ermənistandakı revanşist qüvvələrdən tutmuş, ayrı-ayrı qonşu və qeyri-regional dövlətlər üçün çox mühüm mesaj olaraq qəbul edilir. Təsadüfi deyil ki, Şuşa Bəyannaməsindən sonra Ermənistandakı revanşist qüvvələrin kürkünə birə düşdü. Onlar artıq fərqindədirlər ki, Azərbaycanın hər bir sahədə, xüsusilə hərbi qüdrəti dəfələrlə artdı. Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə də çatdırır. Əlbəttə ki, öncə söhbət erməni məsələsi adı altında bölgədə əsrlərdir öz dövlət maraqlarını reallaşdırmaq istəyən kənar qüvvələrdən gedir və inlar üçün də bu Bəyannamə tutarlı bir mesaj sayılır. Çünki, bütün qonşu dövlətlər, eləcxə də dünya ictimaiyyəti qəbul etmək məcburiyyətindədir ki, Azərbaycanın dövlət suverenliyini təhdid etmək fikrinə düşənlər yeni regional hərbi-siyasi blokla qarşılaşmalı olacaqlar.

Göründüyü kimi, Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti olduqca böyükdür və sadaladıqca da bitən deyil. Bu barədə hələ illərlə yazılacaq və politoloqlar tərəfindən də şərh olunacaq. Məsələ burasındadır ki, bu Bəyannamə iki qardaş ölkənin liderlərinin, Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın siyasi uzaqgörənliyinin, müdrikliyinin bariz nümnəsidir. Görünən odur ki, Bəyannamənin məhz Şuşada imzalanması ilə rəsmi Bakı öz qələbəsini bir daha təsdiqlədi. Təsdiq etdi ki, Şuşa Azərbaycanındır və buna şübhə belə edilməz. Təsdiq olundu ki, Azərbaycan qalib ölkədir və tarixi ədaləti bərpa etdikdən sonra indi öz doğma torpağında, öz doğma şəhərində, mədəniyyət paytaxtında Bəyannamə imzalayır. Bununla revanşistlərə də, bir çox Azərbaycan əleyhinə olan qüvvələrə konkret mesaj verildi ki, yenidən hansısa çirkin niyyətlərə düşsələr, hansı güclə üz-üzə qalacaqlarının fərqində olsunlar.

Qeyd olunan məsələdə, daha dəqiq desək, Şuşa Bəyannaməsinin imzalanmasında bir məqama da diqqət yetirmək lazım gəlir ki, NATO ölkəsi olaraq Türkiyənin hərbi bazasının Azərbaycanda yaradılması təklifləri nəzərə çarpan məsələdir. Təsadüfi deyil ki, bu, Rusiya və İranı hələ o zaman belə bərk qıcıqlandırırdı. Təbii ki, kimin necə reaksiya verməsindən, nə şəkildə qəbul etməsindən asılı olmayaraq, bu formada əməkdaşlığa qarşı heç kəs çıxa bilməz və bilməyəcək də, çünki Azərbaycan və Türkiyə məsələni ustalıqla və diplomatik məharətlə həll edib. Qeyd olunduğu kimi, bölgənin ən yeni tarixi üçün Şuşa Bəyannaməsinin önəmi hələ qarşıdakı illərdə daha da aydın şəkildə şərh olunacaq və daha böyük, daha önəmli məqamlar ortaya çıxacaq. Lakin qısa şəkildə deyə bilərik ki, bu Bəyannamənin imzalanması yalnız taktiki gediş sayıla bilməz, eyni zamanda dərin strateji düşüncənin məhsulu olaraq qiymətləndirilir, hansıki bölgənin geosiyasi mənzərəsini köklü şəkildə dəyişə bilib.

***İnam Hacıyev***



## Binəli Yıldırım Şuşada

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım Şuşaya səfər edib.

"İki sahil" xəbər verir ki, bu barədə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı "Twitter"də bildirib.

Səfər Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümü ərəfəsində baş tutub.

## Əlcəzair KİV xarici diplomatların Şuşaya səfərindən yazıb

Əlcəzairin "Əl Hərir" və "Cezair.info" portallarında xarici diplomatların Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfəri haqqında material yayımlanıb.

AZƏRTAC-ın xəbərinə istinadla yayımlanan yazıda qeyd olunub ki, 11 ölkə və dörd qitədən olan xarici diplomatlar Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfər ediblər. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) vasitəsilə Xarici İşlər Nazirliyi və ADA Universiteti nəzdində fəaliyyət göstərən İnkişaf və Diploma-



tiya İnstitutunun İxtisasartırma Proqramları tərəfindən birgə həyata keçirilən "Əcnəbi Diplomatlar üçün Xarici Siyasət Proqramı - 2022" adlı beynəlxalq kursun iştirakçısı olan 14 xarici diplomatın səfəri zamanı qonaqlar Azərbaycan xalqının maddi-mədəni və tarixi irsinə qarşı törədilmiş soyqırımı fəaliyyəti nəticəsində dağıdılan yaşayış məskənləri və mədəni-tarixi nümunələrlə tanış olublar. Eyni zamanda, Ermənistanın beynəlxalq hüquqa zidd və qeyri-insani fəaliyyəti nəticəsində vaxtilə işğal altında olan ərazilərdə ciddi mina təhlükəsinin olduğu və minalanmış ərazilərin dəqiq xəritəsinin Azərbaycan tərəfinə hələ də verilmədiyi, postmüharibə dövründə 200-dən artıq Azərbaycan vətəndaşının, o cümlədən uşaqların və jurnalistlərin mina qurbanları olduğu xarici diplomatların diqqətinə çatdırılıb.

Sonda ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, səfər müddətində Şuşada və yol boyunca işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma və genişmiqyaslı tikinti işləri ilə tanış olan qonaqlar aparılan fəaliyyətin həcmi və sürətini alqışlayıblar. Onlara torpaqların azad edilməsi ilə bu ərazilərin yenidən dünyanın iqtisadi, mədəni və turistik xəritəsinə geri qayıtdığı və bu günədək Azərbaycan hökumətinin bunun yeganə təminatçısı olduğu bildirilib.

# 15 İYUN:

## Azərbaycan dövlətçiliyinin xilas günü

***Azərbaycan dövlətçiliyinin xilas günü kimi tarixə yazılan 15 İyun-Milli Qurtuluş Gününü xalqımız böyük ehtiramla yad edir. Hər bir tarixi gün, bayram keçirilən yolun təhlilini bir zərurət kimi qarşıya qoyur, onun mahiyyətini daha dərindən dərk etməyə çağırışlar edir, qarşıdakı hədəflərin müəyyənləşdirilməsində stimulverici amil rolunu oynayır.***

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini yenidən bərpa etdi. Qeyd edək ki, XX əsrin əvvəlində müsəlman Şərqinin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti 23 ay yaşasa da xalqımızın azadlıq, müstəqillik arzusunu söndürmədi, əksinə daha da alovlandırdı. Azərbaycan XX əsrin sonunda yenidən öz müstəqilliyinə qovuşdu. Müstəqilliyimizin bərpasının ilk illərində ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətlərinin yoxluğu, şəxsi ambisiyalarının quluna çevrilmələri ölkəni çətin durum qarşısında qoydu. Bu ünsürlərin əməlləri nəticəsində Azərbaycan uçurumun bir addımlığına yaxınlaşmışdı. Ölkəmiz müstəqilliyini itirmək, parçalanmaq, bir dövlət olaraq dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qaldı. 1992-ci ildə hakimiyyəti ələ keçirən AXC-Müsavat cütlüyünün yaratmaz siyasəti xalqın səbr kasasını doldurmuşdu. Digər tərəfdən həmin dövrdə Silahlı Qüvvələrin torpaqlarımızın deyil, ayrı-ayrı şəxslərin maraqlarının müdafiəçisinə çevrilməsi acı reallıq idi. Bir sözlə, Azərbaycan "Olum, ya ölüm!" dilemması qarşısında qalmışdı. Belə çətin vəziyyətdə xalq ayağa qalxaraq öz xilaskarını axtardı, zəngin dövlətçilik təcrübəsinə malik, Vətənini, torpağını canından artıq sevən, ən çətin anlarda xalqının yanında olan ümummilli lider Heydər Əliyevə üz tutdu. Ulu Öndərin xalqın təkidli tələbi ilə 9 iyun 1993-cü ildə Bakıya gəlişi bugünkü uğurlarımızın başlanğıcı oldu. Ümummilli Lider iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi. 15 İyun tariximizə Mİlli Qurtuluş Günü kimi yazıldı.

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" tezisi müstəqilliyimizin bərpasının ilk illərində yaşananlar fonunda özünün aydın ifadəsini tapdı. Vətənini, xalqını canından artıq sevən ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdışından sonra ilk olaraq hər bir ölkənin inkişafında vacib amillərdən olan sabitliyi və iqtisadi inkişafı təmin etdi. Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrildi. Bu mühüm amil ölkəmizlə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan, amma 1991-1993-cü illərin xaosunun, anarxiyasının nəticəsi olaraq tərəddüdlər içərisində olan dövlətlərin, şirkətlərin bu narahatlıqlarına son qoydu, ölkəmiz yeni dostlar, tərəfdaşlar qazanmağa başladı. Ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də Ermənistanla atəşkəs sazişinin imzalanması bütün sahələrdə uğurlara yol açdı. Həmin ilin sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı, Azərbaycanın hərtərəfli inkişafının, dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu. Ümummilli Liderin iqtisadiyyatın inkişafında neft amilinə yüksək önəm verməsi uzaqgörən siyasətinin göstəricisidir. Xalqımızın ən böyük istəklərindən biri öz təbii sərvətlərinin əsl sahibi olmaq və onlardan ölkəmizin, xalqımızın gələcək inkişafı üçün bəhrələnmək idi. Ümummilli lider Heydər Əiyev "Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur" söyləyərək 1999-cu ildə böyük uzaqgörənliklə Dövlət Neft Fondunu yaratmaqla xalqımızın bu istəyini reallığa çevirdi. Belə ki, neft gəlirlərinin düzgün idarə olunması biri-birindən əhəmiyyətli sosial-iqtisadi layihələrin uğurlu icrasını təmin edir ki, bu da öz növbəsində ölkəmizin hərtərəfli inkiafını, əhalinin sosial müdafiəsinin gücləndirilməsini şərtləndirir.



***Elməddin Quliyev***
***Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

Azərbaycan bu gün Ümummilli Liderin müəllifi olduğu neft strategiyasının uğurlarını yaşayır. Regional çərçivədə qurulan əməkdaşlıq əlaqələri artıq beynəlxalq miqyas alıb. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin reallığa çevrilməsi Azərbaycanı regional inkişafın aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevirdi. Bunlarla yanaşı, regional əməkdaşlıq çərçivəsində Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi gerçəkləşdi. Artıq bu silsilənin davamı olaraq 2017-ci ildə "Yeni əsrin müqaviləsi" imzalandı, 2018-ci ildə Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu, həmin ilin iyun ayında əsas seqmentlərindən olan TANAP və 2020-ci il dekabr ayının 31-də TAP istifadəyə verildi. Bununla da Cənub Qaz Dəhlizi layihəsi tam şəkildə başa çatdırıldı.

Ölkəmizin iqtisadi imkanlarının genişlənməsi digər sahələrdə də mühüm addımların atılmasını təmin etdi. Azərbaycanda demokratik təsisatların inkişafı istiqamətində mühüm addımlar atıldı. 1995-ci il 12 noyabrda Milli Konstitusiyamız qəbul olundu. Demokrtatiyanın vacib atributları olan insan hüquqlarının qorunması, azad mətbuatın formalaşması, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi üçün zəruri tədbirlər görüldü və uğurlu nəticələr bugünkü reallıqlarımızda özünün aydın mənzərəsini yaradır. Bu baxımdan ki, 1993-2003-cü illərdə yaradılan möhkəm təməl Azərbaycanın hər bir sahədə uğurlu inkişafına geniş şərait yaradır.

Ümummilli Lider düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanın ətrafında yaradılan informasiya blokadasını yardı. Ulu öndər Heydər Əliyevin xarici ölkələrə elə bir səfəri yox idi ki, artıq tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsindən bəhs olunmasın, mahiyyəti faktlar əsasında dünya ictimaiyyətinə çatdırılmasın. Bir mühüm məqamı da qeyd etməliyik ki, ulu öndər Heydər Əliyev diasporu bir dövlətin xaricdə varlığı kimi önə çəkərək diaspor quruculuğunu dövlət siyasətinin əsas tərkib hissəsinə çevirdi. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın bir amal-azərbaycançılıq ideologiyası əsasında birliyi, həmrəliyi növbəti uğurlarımızda öz sözünü dedi.

Ümummilli Lider sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü, qüdrətli ordunun olmasını qarşıya mühüm vəzifə kimi qoydu və bu istiqamətdə mühüm addımlar atıldı. O zaman yaradılan möhkəm təməl Azərbaycan Ordusunun hazırda dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşmasına, 44 günlük Vətən müharibəsində tarix yazmasına yol açdı.

Dahi şəxsiyyət Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında xidmətlərindən günlərlə, aylarla danışmaq olar. Onun fəaliyyətinin hər bir sahəsi bir tədqiqat mövzusudur. Ulu Öndərin fəaliyyətini özündə ehtiva edən neçə-neçə kitablar çap olunub. Hər bir yeni nəşr gələcək nəsillərin Ümummilli Liderin irsinin öyrənilməsində zəngin mənbə rolu oynayacaq.

Ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında xidmətlərindən bəhs edərkən hazırda sıralarında 800 minə yaxın üzvü birləşdirən, milyonların partiyası kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. YAP-ın yaradılması da Azərbaycanın həyatında dönüş nöqtəsidir. Yeni Azərbaycan Partiyası xalqın istəyi, zamanın tələbi əsasında yaradılaraq qət etdiyi bu 30 ildə sözlə əməl birliyini, monolitliyini qorudu, Azərbaycanın davamlı inkişafına, yeni-yeni hədəflərin reallığa çevrilməsinə öz töhfələrini verir. Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizlə yanaşı, Yeni Azərbaycan Partiyasının həyatında da yeni inkişaf mərhələsinin əsasını qoydu. Son 18 ildən artıq dövrdə YAP Heydər Əliyev siyasətinin müdrik davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, yeni təşəbbüsləri, qəbul etdiyi qərarları ilə milyonların sevgisini və rəğbətini qazanır.

2003-cü ildən başlanan yol və əldə edilən uğurlar Heydər Əliyev siyasətinin təntənəsidir. Azərbaycan bütün sahələrdə sürətlə inkişaf edir. Ümummilli Lider 2003-cü ildə Azərbaycanın gələcək inkişafı üçün inamın və etimadın növbəti ünvanını göstərməklə özünün sona çatdıra bilmədiyi işlərin, layihələrin uğurlu icrasını təmin etdi. Dövlət başçısı cənab İlham Əliyev ilk gündən Azərbaycanın daha güclü, qüdrətli dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bildirdi və bunu əməli fəaliyyətində təsdiqləyir.

Milli Qurtuluşdan başlanan yol xalqımızı tarixi Zəfər gününə qədər apardı. Bu Qələbə cənab İlham Əliyevin Prezidentliyinin 17 ilinin məhz torpaqlarımızın işğaldan azad edilməsi üçün hazırlıq işlərinə həsr olunduğunu təsdiqlədi. Azərbaycan daha da gücləndi, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün möhkəm hüquqi baza formalaşdı. 44 günlük Vətən Müharibəsi xalqımızın torpaq, yurd sevgisinin də dünyaya təqdimatı oldu. Bu gün Qarabağımız, Şuşamız azaddır. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss edir.

Xalqımız iki ilə yaxındır ki, tarixi günləri, bayramları ikiqat bayram edir. Artıq torpaqlarımız işğaldan azad edilib, milli qürurumuz, kimliyimiz özümüzə qayıdıb, xalqımızın alnı açıq, üzü ağdır. İşğaldan azad edilmiş bütün torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu torpaqlara hər səfəri soydaşlarımızın Böyük Qayıdışını daha da yaxınlaşdırır.

Qısa təhlil əsasında tariximizə Milli Qurtuluş Günü kimi yazılan 15 iyun 1993-cü ildən bizləri ayıran 29 illik zamanın Azərbaycanın həyatında hansı möhtəşəm uğurlarla yadda qaldığını görürük. Bu gün böyük fəxr və qürur hissi ilə "Gözün aydın, Azərbaycan! Gözün aydın, Azərbaycan xalqı! Zəfəriniz mübarək!" deyirik. 1993-cü ildə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtmasaydı bu gün belə möhtəşəm uğurlardan bəhs etməyimiz xəyal olardı. Azərbaycan adlı dövlətin varlığından danışmaq mümkünsüz idi. Dahi şəxsiyyət qayıdışı ilə Azərbaycanı yenidən qurdu. İldən-ilə güclənən, qüdrətlənən dövlətimiz daim dəyişməz mövqeyini ən yüksək tribunalardan bəyan etdi, ərazi bütövlüyümüzün danışıqlar mövzusu olmadığını bildirdi. Dövlətimizin qətiyyəti, ordumuzun gücü, xalqımızın birliyi sayəsində yazılan Zəfər tarixi fonunda bütün işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır. 28 il yurd həsrəti, torpaq sevgisi ilə yaşayan xalqımız üçün bundan böyük xoşbəxtlik ola bilməz. 30 ilə yaxın düşmən tapdağı altında qalan həmin ərazilərimiz bu gün tarixi sahiblərinə qovuşduqları üçün sevinclidir, qürurludur. Mənfur düşməndən təmizlənmiş cənnət Qarabağımızda artıq yeni həyat başlayıb. Mədəniyyət paytaxtımız Şuşa hər gün bir mühüm tədbirə ev sahibliyi edir. Dünya azərbaycanlılarını bir araya gətirən Şuşa onlara bu tarixi şəhərimizin reallıqlarını görmək imkanı qazandırdı. Qarabağın döyünən ürəyi Şuşada, Cıdır düzündə 29 ildən sonra Novruz tonqallarının alovlanması, "Xarıbülbül" musiqi festivalının və Vaqif Poeziya Günlərinin ənənəsinin bərpası, bu məkandan muğamlarımızın səslənməsi, birliyimizin, həmrəyliyimizin sayəsində Şuşamızın diplomatik mərkəzə çevrilərək Azərbaycanın xarici siyasət uğurlarına öz töhfələrini verməsi və sıralamaqla bitib-tükənməyən digər uğurlarımız Milli Qurtuluşun real nəticələridir.

Ötən il ilk dəfə olaraq Milli Qurtuluş Gününü Zəfər ruhunda azad Şuşamızda qeyd etdik. Dost, qardaş Türkiyənin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Qarabağımıza ilk səfər edən dövlət başçısı oldu. Məhz Milli Qurtuluş Günündə Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının, müttəfiqliyinin təsdiqi olan Şuşa Bəyannaməsinin imzalanması dünyaya ünvanlanmış mesaj oldu. Şuşada qoşa dalğalanan Azərbaycan və Türkiyə bayraqları ölkələrimizin birliyinin təqdimatı kimi dəyərləndirildi. Bir daha sübut olundu ki, Azərbaycan və Türkiyə hər zaman bir yerdədirlər.

Milli Qurtuluş Gününü yaradan, Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan ulu öndər Heydər Əliyev daim xalqımızın qəlbində yaşayacaq. Ümummilli lider Heydər Əliyev adını tarixə müstəqilliyimizin, onun müzəffər davamçısı cənab İlham Əliyev torpaqlarımızın xilaskarı kimi yazdı. Azərbaycan xalqı əbəs yerə beynəlxalq qurumların hesabatlarında ən xoşbəxt xalqlar arasında qərarlaşmayıb. Milli Qurtuluşdan başlanan inkişaf yolu ölkəmizə bundan sonra da möhtəşəm uğurlar qazandıracaq, Azərbaycanın liderliyini təmin edəcək.

Yenilməz, məğrur, tarixinə sahib çıxan Azərbaycan xalqı, Zəfər sevincli Milli Qurtuluş Günün mübarək! Bu tarixi günün hazırda bütün bölgələrdə, o cümlədən azad Qarabağda, Şuşada qeyd olunmasının yaratdığı hissləri sözlə ifadə etmək mümkün deyil. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtilə əminliklə qeyd etdiyi "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik" fikirlərinin davamı olaraq Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident cənab İlham Əliyevin Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza müraciətində dediyi "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" bəyan etməsi hər bir hədəfə çatmaq üçün böyük potensialımızın, ən əsası ədalətə və beynəlxalq hüquqa əsaslanan müstəqil siyasətimizin mövcudluğunun təsdiqidir. Məhz bu reallıqlar və gələcəklə bağlı aydın hədəflər "Qurtuluş bizə nə verdi" sualının ümumiləşdirilmiş dolğun cavabıdır.

# Məktəblilər yay tətilini necə səmərəli keçirməlidir?

**14 iyun tarixindən etibarən dövlət ərazisindəki bütün məktəblərdə uşaqlar yay tətilinə buraxılıb. Yay tətilində uşaqların asudə vaxtlarını səmərəli keçirməsi olduqca vacibdir. Beyin yoran dərslərdən sonra uşaqların dincəlməsi üçün müəyyən əyləncə proqramları mövcuddur. Bəs görəsən şəhər sakinlərinin fikirlərinə görə uşaqlar yay tətilini necə keçirməlidir. SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:**

**Şəhər sakini İndira İsmayılova:** "Uşaqlar bu gün məktəbdən yay tətilinə buraxıldılar. 3 ay ərzində boşdurlar.



Amma düşünürəm ki, bu vaxtlarını da yenə səmərəli keçirməlidirlər. Telefon, tablet, televizorlardan uaqları uzaq tutmaq lazımdır. Bəli, istifadə edə bilərlər. Lakin müəyyən bir zaman çərçivəsində. Əlbəttə ki, bütün gün bunlarla oynamaq onların xeyrinə deyil, əksinə, ziyanınadır. Yaxşı olardı ki, yay düşərgələrinə getsinlər. Düşərgələr uşaqların şəxsi inkişafı üçün olduqca xeyirlidir".

**Şəhər sakini Afaq Sadıxova:**



"Uşaqlara yay tətilində telefon vermək düzgün deyil, nə də onları bütün günü evdə saxlamaq olmaz. Bir az icazə verməlidirlər ki, öz istədiklərini etsinlər. Gündəlik kitab oxumaq, parkda gəzmək, teatrlara getmək onların inkişafına yaxşı təsir edər".

**Şəhər sakini Əziz Əzizov:** "Uşaqlar bütün ili dərs oxuyublar. Əlbəttə ki, beyin yüklənir və uşaqlar yorulur. İsti-



rahət etmək lazımdır. Amma gərək uşaqları yay tətilində çox yükləməyək. Əlavə məşğələlərə qoymaq olar. Amma onları yormaq lazım deyil. Bu müddət ərzində onları sərbəst buraxmalıyıq. Özlərini kəşf etmələrinə, nəyə maraqlarının olduğunu öyrənmək üçün onlara bir qədər rahat buraxmalıyıq".

**Şəhər sakini Leyla İbrahimova:** "Yaxşı olar ki, valideynlər bu vaxt ərzində uşaqları ilə vaxt keçirsinlər, on-



larla maraqlansınlar. Əllərinə telefon verib hər şeydən təcrid etməsinlər. Əyləncə mərkəzlərinə apara bilərlər, müxtəlif proqramlarda iştirak edə bilərlər. Çoxlu kitab oxumaq onların mütaliə qabiliyyətini artırmağa kömək edəcək".

**Şəhər sakini Kəmalə Əzimova:** "Uşaqlar üçün gözəl şərait yaradılıb. dostları ilə bərabər piknik edə bilərlər.



Filmə, teratra, konsertlərə gedə bilərlər. Onların dünya görüşünün artmasında rol oynayır bu kimi şeylər. Və ya kitab oxuya bilərlər. Siniflə bərabər rayonlara səfər etmək onlar üçün bir əyləncə növüdür. Yay tətilini yanlız deyil də dostları ilə keçirməsi daha yaxşı olar".

**Şəhər sakini Fərid Mirzə:** "Yayda ən gözəl əyləncələrdən biri uşaqları dənizə aparmaqdır. Bütün ilin yorğun-



luğunu öz üstlərindən atırlar. Həmçinin, kəndə getmək, oradakı həyatla tanış olmaq onlar üçün maraqlı olar. Düşərgələrə getmək onların kollektivdə özlərini idarə etməsinə kömək edəcək. Yaxşı olar ki, uşaqları bir az sərbəst buraxaq, telefondan uzaq durmaları onlar üçün daha yaxşı olar".

***Abutel İlhamqızı***

# "Tarix bizi yeni sınaqlarla qarşılaşdıracaq"

"15 iyun 2021-ci ildə mədəniyyət paytaxtımız Şuşada Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında imzalanmış Müttəfiqlik Bəyannaməsi qardaşlıq və dostluğumuzun rəsmi şəkildə dünyaya bəyan edilməsi deməkidi". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib. Onun sözlərinə görə, Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq tarixin sınaqlarından çıxıb: "Biz çətin və xoş günlərimizdə bir-birimizə arxa və dayaq olduğunu bütün dünyaya nümayiş etmişik. Bu nümayişin təntənəsini II Qarabağ müharibəsində bir daha öz təsdiqini tapmış oldu. 44 günlük Vətən müharibəsinin ilk günündə Rəcəb Tayyib Ərdoğanın Türkiyənin hər cürə dəstəklə Azərbaycanın yanında olduğunu bəyan etməsi haqq işimizə müdaxilə etmək istəyən qara qüvvələri öz bəd niyyətlərindən daşındırdı və işimizi sona qədər icra etməyimizə imkan yaratdı.



Şuşa Bəyannaməsi xalqımız üçün müstəsna əhəmiyyət daşıyan əlamətdar tarixi bir gündə imzalanmışdır. 15 iyun 29 il əvvəl ikinci dəfə nail olduğumuz dövlət müstəqilliyimizin tarixi sınaqla qarşılaşdığı bir gün idi. Ulu Öndər Heydər Əliyevin məhz 15 iyunda Azərbaycan Ali Sovetinə sədr seçilməsi Azərbaycanı parçalanmaq bəlasından qurtardı və müstəqil dövlətimizin bünövrəsi qoyuldu. 15 iyunda qoyulmuş dövlətçiliyimizin möhkəm təməlləri üzərində qurulan müstəqil Azərbaycan dövləti bu illər ərzində inkişaf edərək güclənmiş və 30 ildən sonra ərazisi bütövlüyünü bərpa edərək sözün əsl mənasında müstəqil dövlətə çevrilmiş oldu. Bu əlamətdar tarixdə azad Şuşada iki dövlət başçımızın imzaladığı sənəd dövlət müstəqilliyimizin əbədi olmasına yazılmış rəsmi vəsiqə oldu. Şuşa Bəyannaməsində rəsmi şəkildə təsdiq olunmuş ölkələrimiz arasındakı müttəfiqlik münasibətləri siyasət, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, iqtisadiyyat, enerji təlükəsizliyi, nəqliyat, mədəniyyət, təhsil, ordu quruculuğu və digər strateji sahələri əhatə edir".

Deputat sözlərinə belə davam edib: "Şuşa Bəyannaməsi 44 günlük Vətən müharibəsində döyüş meydanında yaratdığımız yeni reallığın həyata keçirilməsi üçün yeni imkanlar açır. Burada regionda əməkdaşlığın genişləndirilməsi, xalqların inteqrasiyası və təlükəsizliyin təmin edilməsi, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məsələlərində birgə iştirakımız nəzərdə tutulur. Şuşa Bəyannaməsinin imzalanmasından keçən bir il ərzində bu əməkdaşlığımız və dəstəyimizi bütün dünyaya bir daha nümayiş etdirə bilmişik. Xalqlarımız və dövlətlərimiz üçün əlamətdar günlərdə prezidentlərimizin qarşılıqlı səfərlərin intensivləşməsi, ordumuzun təkmilləşdirilməsində Türkiyənin iştirakı, işğaldan azad olunmuş ərazilərdə icra olunan böyük layihələrin ərsəyə gəlməsində türk şirkətlərin gördüyü keyfiyyətli işlər, 8 ayda inşa olunaraq açılışını prezidentlər tərəfindən əyata keçirilən Füzuli Beynəlxalq Hava Limanı, Türkiyədə Rize-Artvin Hava Limanı, yaratdığımız yeni reallığın həyata keçirilməsi üçün Türkiyənin bütün beynəlxalq platformlarada verdiyi dəstək, Bakıda Teknofest Azərbaycan, Aviasiya, Kosmik və Texnologiya Festivalının keçirilməsi böyük tarixi məna kəsb edir.

Bəli, tarix bizi yenə sınaqlarla qarşılaşdıracaqdır. Bu, bütün tarixi dövrlərdə mövcud olmuş və bundan sonra da olacaqdır. Amma bundan sonra bütün məsələlərdə dünya Azərbaycan - Türkiyə monolitliyi əsasında yaranmış yeni bir güc görürür. Birliyimiz ümumi gücümüzü və nüfuzumuzu artırır. Müttəfiqliyimiz lazım gələn anda heç nəyi düşünmədən bir-birimizin yanımızda olmağımıza imkan yaradır. Dünya nizamı müxtəlif siyasi proseslərdə dövlətlərə münasibət formalaşdırır. Bu qəribə dünyada müttəfiqliyimizin rəsmiləşməsi və sözün əsil mənasında eyni mövqedən çıxış etməyimiz yeni dünya nizamında güclülərin boy sırasında yerimizi möhkəmləndirir".

***Ayşən Vəli***

## Taksi xidmətlərinin bahalaşmasının səbəbləri nələrdir?

*İQTİSADÇI AÇIQLADI*




"Azərbaycanda iqtisadiyyatın digər sahələri ilə müqayisədə xidmət sektorunda kifayət qədər rəqabət var". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, bunların arasında rəqabət həm ictimai iaşə müəssisələri arasında, həm də taksi xidmətlərində daha güclüdür: "Məhz taksi xidmətində olan rəqabətin nəticəsi olaraq bir müddət əvvəl taksilərin qiymətinin daha çox endiyini müşahidə etdik. Restoranlarda və kafelərdə qiymətlər o qədər də ürəkaçan olmasa da rəqabət var. Rəqabətin olduğu bir şəraitdə qiymətlər yuxarıdırsa, artıq bu iqtisadi zərurətdən doğan bir qiymətdir. Taksilərin qiymətinin qalxması da elə bundan qaynaqlanır. Sadəcə olaraq qiymətin müəyyən qədər qalxması fonunda gərək xidmətin səviyyəsi də artsın. Yəni qiymət və keyfiyyət bir-biri ilə bilavasitə əks mütənasiblik təşkil edir. Qiymətin bir qədər qalxması nəticəsində məntiqlə keyfiyyət də qalxmalıdır".

***Arzu Qurbanlı***

## "Azərbaycan-Türkiyə əlaqələrinin bənzəri yoxdur"



"Azərbaycan və Türkiyə təkcə eyni dilə, eyni soykökə, eyni dinə, eyni tarixə və eyni mədəniyyətə malik iki ölkə deyil, həmçinin iki qardaş, iki dost, iki müttəfiq dövlətlərdir. Qardaşlıq, səmimi müttəfiqlik səviyyəsinə görə Azərbaycan-Türkiyə əlaqələrinin ümumiyyətlə bənzəri yoxdur". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.

Onun sözlərinə görə, keçən il iyunun 15-də Şuşada imzalanan Bəyannamə isə bu dost və qardaşlığın yeni tarixi mərhələyə qədəm qoyduğunu bütün dünyaya bildirən çox vacib bir ismarıc idi: "Heç şübhəsiz ki, Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin müstəsna siyasi və tarixi əhəmiyyəti vardır. Bəyannamənin əhəmiyyəti haqqında danışarkən onu qeyd etməliyəm ki, orada əksini tapmış məsələlər indiyə qədər Azərbaycan və Türkiyə arasında olan onsuz da kifayət qədər yaxşı münasibətləri keyfiyyət və həcm baxımından yeni mərhələyə daşımaq üçün hər iki ölkəyə xeyli imkanlar tanıdı. Məlum olduğu kimi Şuşa Bəyannaməsi ölkələr arasındakı münasibətlərdə elə bir sahə yoxdur ki, onları əhatə etməsin. Bəyannamə özündə siyasət, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, ordu quruculuğu və digər strateji sahələrdə əməkdaşlığı ehtiva edir. Bəyannamədə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf edirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələlər yer alır.

Şuşa Bəyannaməsi həm də Türkiyə və Azərbaycanı Cənubi Qafqazda sülhün və əmin-amanlığın ortaq qarantına çevirdi desəm yəqin ki, səhv etmərəm. Bundan sonra regionda hərbi-siyasi güc göstərmək istəyənlər artıq ciddi şəkildə düşünməli olacaqlar. Bəyannamədə qeyd olunan: "...Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur" müddəası erməni separatizminə və onun havadarlarına ciddi xəbərdarlıq mahiyyəti daşıyır və Azərbaycan qarşı məkrli planları olan istənilən qüvvəyə bundan sonra Azərbaycanla yanaşı qarşılarında Türkiyəni də görəcəklər mesajını verir."

***Banuçiçək Hüseynli***





# Milli Qurtuluşa gedən çətin və şərəfli yol

*Milli Məclisin deputatı, iqtisad elmləri doktoru, professor Eldar İbrahimovun yap.org.az-a müsahibəsi*

***-Eldar müəllim, müstəqillik tariximizin şanlı səhifəsi, ölkəmizin, xalqımızın taleyində dönüş nöqtəsi kimi dəyərləndirilən 15 iyun 1993-cü il tarixindən bizləri 29 illik zaman ayırır. 29 il dünənimiz, bugünümüz və gələcəyimiz barədə nələri açıqlayır?***

-XX əsrin əvvəllərində ilk dəfə olaraq öz azadlığına qovuşaraq suveren dövlət kimi formalaşmağa başlayan Azərbaycan Cümhuriyyətini qoruyub saxlamaq mümkün olmadığından cəmi 23 ay fəaliyyət göstərəbildi. Lakin əsrin sonunda Heydər Əliyev qətiyyəti və siyasi uzaqgörənliyi ilə xalqımızın bu istəyi reallığa çevrildi. Bugünkü müstəqil və müasir Azərbaycan Respublikası xalqımızın uzun illər ürəyində yaşatdığı istiqlal istəyinin gerçək həyatda ifadəsi, onun milli mənliyinin təcəssümüdür! İkinci dəfə müstəqillik əldə etməsindən keçən 31 il müddətində Azərbaycan Respublikası sübut etmişdir ki, o, heç kimdən asılı olmadan sərbəst yaşamaq iqtidarında olan, başqa ölkələrə yük olmadan dünyanın bir nömrəli problemi sayılan enerji təhlükəsizliyinin təmin edilməsinə özünün layiqli töhfəsini verən və etibarlı tərəfdaş imici qazanmış bir ölkədir. Bütün bu fəaliyyətin əsasında isə Azərbaycan xalqının həyatına yeni və xoşbəxt gələcəyi olan dövrün başlanğıcı kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü dayanır. Məhz həmin gün Azərbaycan xalqının görkəmli oğlu, dünya şöhrətli ictimai və dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Parlamentinə sədr seçilməklə ikinci dəfə siyasi hakimiyyətə gəlməsi şanlı tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Vətənini, xalqını sevən, o dövrkü çətin və ağrılı günlərin dəhşətlərini yaşayan insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bununla yanaşı, hazırkı və gələcək nəsillərdə təbii bir sual yarana bilər ki, nəyə görə məhz Heydər Əliyevin ölkə hakimiyyətinə qayıdışı bayram günü kimi qeyd olunur. Bu suala cavab vermək üçün Heydər Əliyevin Azərbaycan Respublikasının inkişafı və Azərbaycanda milli özünüdərk prosesinin qüvvətlənməsi sahəsində fəaliyyətinə qısaca nəzər yetirmək kifayətdir.

Belə ki, keçən əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəlində Azərbaycan ölkəmizi sevməyən xarici və daxili qüvvələrin yaratdığı həlli çətin görünən problemlə üzləşmişdi. Ermənistanda və Azərbaycanın Qarabağ bölgəsində yaşayan azərbaycanlıların öz doğma yurdlarından ermənilər tərəfindən zorla didərgin salınması, Dağlıq Qarabağ münaqişəsinin genişlənməsi və bölgədə olan rayonların dalbadal işğalı, müəyyən ərazilərdə separatizm meyllərinin təhlükəli vəziyyət alması, iqtisadi tənəzzül və xalqın sosial rifahının getdikcə pisləşməsi və digər neqativ proseslər. Bütün bunlar o dövrün adi mənzərəsi idi. Xaos və özbaşınalıq, vətəndaş müharibəsi təhlükəsi insanlarda ölkənin gələcəyi ilə bağlı böyük suallar doğururdu. Belə bir çox çətin və mürəkkəb vəziyyətdən çıxış yolunu hamı Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında görür, ona etibar edir və görkəmli dövlət xadiminə böyük ümidlər bağlayırdı. Dövlətçiliyimizin müqəddəratının həll edildiyi 1993-cü ilin vahiməli iyun günlərində xalqın təkidli tələbi ilə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı məhv olmaq fəlakətindən, Xalq Cümhuriyyətinin aqibətindən xilas etməklə onu davamlı və dayanıqlı inkişaf yoluna çıxardı.

***-Ümummilli Liderin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında misilsiz xidmətləri heç də təsadüfi və asan olmamışdır…***

- Ulu öndər Heydər Əliyev ilk dəfə 1969-1982-ci illərdə SSRİ-nin tərkibində olan Azərbaycan Sovet Sosialist Respublikasına Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi rəhbərliyə başlamışdır. O, fəaliyyətə başladığı ilk gündən xalqına bağlı olduğunu, respublikanın və onun bölgələrinin sosial-iqtisadi inkişafına nail olmaq üçün əzmkarlıqla çalışdığını və əhalinin rifahının yaxşılaşmasına xüsusi önəm verməsini əyani surətdə göstərdi. Həmin dövrdə iqtisadiyyatın bütün sahələrində olduğu kimi ölkəmiz üçün ənənəvi sahə olan kənd təsərrüfatının inkişafında da möhtəşəm nailiyyətlər əldə olundu. Həmin dövrdə təsərrüfatların maddi-texniki bazası yeni texnika və texnologiya ilə möhkəmləndi, əkinçilik mədəniyyəti əsaslı surətdə yüksəldi, bitkiçilik və heyvandarlığın intensiv inkişafı təmin edildi, heyvandarlıq məhsullarının sənaye üsulu ilə istehsalının təşkili üçün heyvandarlıq kompleksləri və quşçuluq fabrikləri fəaliyyətə başladı. Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi iqtisadi siyasət, göstərdiyi əzmkarlıq, tələbkarlıq və yüksək idarəetmə qabiliyyəti nəticəsində aqrar-sənaye kompleksinin digər sahəsi olan aqrar maşınqayırma sənayesi, mineral gübrə və kənd təsərrüfatı üçün lazım olan digər maddi-texniki vasitələr istehsalı də təşəkkül tapdı. Bu məqsədlə yeni zavodlar tikildi və mövcud zavodlar genişləndi. Həmin dövrdə kənd təsərrüfatı məhsulları istehsalının artımı ilə yanaşı, bu məhsulların emalı ilə məşğul olan müəssisələrin şəbəkəsi də böyüdü. Üzüm emalı zavodları tikilib istifadəyə verildi, mövcud pambıq emalı zavodları modernləşdi və yeniləri tikildi, çay, tütün, fındıq, meyvə, tərəvəz, ət, süd və digər məhsulların emalı müəssisələri tikilib istifadəyə verildi. Kənd təsərrüfatı və emal sənayesinin inkişafı respublikamızda yüngül və yeyinti sənayesinin də inkişafına təkan verdi. Aqrar sahədə həyata keçirilən bu düşünülmüş siyasət nəticəsində Azərbaycan ittifaqda geridə qalmış kənd təsərrüfatı respublikasından qabaqcıl aqrar-sənaye kompleksinə malik bir diyara çevrildi və həmin vaxt ümumi daxili məhsulun 30-35 faizi bu bölmənin hesabına təmin edilirdi.

Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə yanaşı, qaz, işıq, su, rabitə, yol və digər infrastruktur sahələrin genişlənməsi təmin edildi, şəhərlərin və kənd ərazilərinin sosial siması kökündən dəyişdi, əhalinin rifah halı əsaslı surətdə yaxşılaşdı. Həmin vaxtlar Heydər Əliyevin təşəbbüsü ilə minlərlə azərbaycanlı gənc keçmiş Sovet İttifaqının aparıcı elm və təd-ris ocaqlarına göndərilmiş və yeni istehsal sahələri ilə bağlı ixtisaslara yiyələnmişdir. Bu dövrdə milli kadr korpusu yaradılmış, dövlət idarəçiliyi təsisatları möhkəmləndirilmiş, elm, səhiyyə, təhsil, mədəniyyət və incəsənət sahələrində ciddi uğurlar qazanılmış, ən başlıcası isə xalqın milli mənlik şüurunun inkişaf etdirilməsində mühüm irəliləyişlər əldə edilmişdir. Azərbaycan Respublikası İttifaq büdcəsindən dotasiya almadan yaşayan iki respublikadan biri idi. Bu da Azərbaycan Respublikasının siyasi və iqtisadi müstəqilliyinə tam zəmanət verən bir vəziyyət idi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi möhtəşəm quruculuq işləri, yüksək idarəçilik qabiliyyəti, dövlətçiliyi inkişaf etdirmək bacarığı və rəhbər işçi kimi böyük potensiala malik olması İttifaq rəhbərliyinin diqqətini cəlb etdi. Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və bu vəzifədə işlədiyi müddətdə İttifaqda mövcud olan ən problemli sahələrin həlli ilə dərindən məşğul olaraq həmin sahələrin inkişafını təmin edirdi. Heydər Əliyev artıq SSRİ-nin bütün bölgələrində bacarıqlı və işgüzar bir rəhbər kimi tanınaraq yüksək nüfuz sahibi idi. O, tez-tez inkişaf etmiş ölkələrdə olur, onlarla əməkdaşlıq problemlərini müzakirə edir və dünyanın siyasi elitasında hörmətlə qarşılanırdı. Onun liderlik məharəti, ittifaqda və beynəlxalq aləmdə böyük nüfuzu, məhsuldar işləmək qabiliyyəti xoşniyyətli insanları sevindirir, bir çox bədxahlarda isə ona qarşı paxıllıq hissi yaradırdı. Bu paxıllığın nəticəsi idi ki, 1987-ci ildə Heydər Əliyevə qarşı SSRİ rəhbərliyində, xüsusilə Sov.İKP MK-nın Baş katibi Qorbaçov tərəfindən aparılan təqiblərə cavab olaraq o, vəzifəsindən istefa verməyə məcbur oldu və təqiblərə məruz qaldı.

Bununla belə bütün qadağalara baxmayaraq Heydər Əliyev SSRİ-də və Azərbaycanda gedən prosesləri diqqətlə izləməkdə davam edir, öz xalqı ilə birgə nəfəs alırdı. Onun gücü də məhz bunda idi. 1990-cı il yanvarın 20-də Sovet qoşunları Bakıda qırğın törədəndən sonra buna ən sərt şəkildə etiraz edən də məhz ümummilli lider idi. Həmin vaxt o, böyük cəsarət nümayiş etdirərək Azərbaycanın Moskvadakı nümayəndəliyinin binasında təşkil edilən mətbuat konfransında SSRİ-nin rəhbərliyini açıq formada kəskin tənqid edib xalqı ilə birlikdə olduğunu bəyan etmişdi.

Heydər Əliyev bir müddət Moskvada yaşadıqdan sonra SSRİ adlı imperiyanın məhv olacağına tam əmin olduğundan öz ölkəsində və doğma diyarı olan Naxçıvanda yaşamağa üstünlük verdi və 1990-cı il iyulun 22-də Naxçıvana gəldi.

***-Eldar müəllim, ulu öndər Heydər Əliyevin xidmətlərinin Naxçıvan mərhələsini necə şərh edərdiniz?***

-Həmin vaxtlar blokada şəraitində olan Naxçıvan özünün ən çətin günlərini yaşayırdı. Muxtar Respublikanın əhalisi bir tərəfdən Ermənistanın hücumlarının qarşısının almağa, digər tərəfdən isə bütün SSRİ məkanında baş alıb gedən hərc-mərclik və xaos nəticəsində bölgədə yaranmış siyasi, iqtisadi və sosial çətinlikləri aradan qaldırmağa çalışırdı. Belə bir vəziyyətdə tanınmış siyasi xadim, həmişə vətəni və xalqı üçün həvəslə çalışmış Heydər Əliyev Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi fəaliyyət göstərməsi naminə əsl mücadiləyə qalxdı.

Onun müstəqillik uğrunda əzmkarlıqla mübarizə apardığını görən Naxçıvan əhalisi Heydər Əliyevi 1990-cı ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikasının və Azərbaycan SSR-nin Ali Sovetinə deputat seçdi.

Heydər Əliyev sessiyalarda Dağlıq Qarabağ problemi ilə əlaqədar Bakı rəsmilərinin yeritdiyi siyasəti və Moskvanın mövqeyini kəskin tənqid edir, SSRİ-nin tezliklə dağılacağını bəyan edirdi. Lakin həmin vaxtlar ölkəyə rəhbərlik edən iqtidar bu fikirlərə məhəl qoymur, Kremlə sədaqət nümayiş etdirirdi. Buna baxmayaraq Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının yaradılması üçün mübarizəsini davam etdirirdi. 1990-cı ilin noyabr ayının 17-də Muxtar Respublikanın Ali Sovetinin birinci sessiyasında Heydər Əliyevin təşəbbüsü ilə doğma Azərbaycanımızın üçrəngli bayrağı qaldırıldı və bununla da həmin vaxtdan müstəqilliyimizin ikinci dəfə əsası qoyuldu. Bundan başqa onun təklifi ilə Muxtar Respublikanın adından "Sovet Sosialist" sözləri çıxarıldı və Naxçıvan MR Ali Soveti Ali Məclis adlandı. Habelə, dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəylik günü elan edildi. Naxçıvan əhalisi Heydər Əliyevə böyük inam və ümid bəsləyərək onun Muxtar Respublikaya rəhbərlik etməsini arzu edirdi. Xalqın bu istəyi 1991-ci il sentyabrın 3-də reallaşdı və Heydər Əliyev Muxtar Respublikanın Ali Məclisinə sədr seçildi.

Ali Məclisin sədri kimi o, öncə ağır günləri yaşayan Naxçıvanın vəziyyətini yüngülləşdirmək üçün qardaş Türkiyə və İranla əlaqələri yaxşılaşdırıb kömək əldə etdi. Muxtar Respublikanın gələcək taleyinin iqtisadiyyatın bazar münasibətləri əsasında inkişaf etməsində görən Ulu öndər tezliklə islahatların həyata keçirilməsini önə çəkdi. Dövlətçilik, qayda-qanun möhkəmləndi, vəzifə sahiblərinin və bütün işçilərin məsuliyyəti artırıldı. Muxtar Respublikada bütün qüvvələr və imkanlar əhalinin rifah halının yaxşılaşmasına və təhlükəsizliyin təmin edilməsinə səfərbər olundu. Azərbaycan Respublikasında ilk dəfə iqtisadi islahatlar Muxtar Respublikanın aqrar sahəsində başladı. Çox uğurla həyata keçirilən bu təxirəsalınmaz tədbirlər tezliklə öz bəhrəsini verdi və Naxçıvanda siyasi və iqtisadi vəziyyət getdikcə stabilləşməyə başladı. İqtisadiyyatda və dövlət quruculuğunda əldə edilən bu sabitlik ermənilərin Muxtar Respublikaya hücumlarını mərdliklə dəf etməyə və cəbhədə sakitliyin bərqərar olmasına imkan yaratdı.

***- Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın çoxəsrlik tarixinə hansı səhifələri yazdı?***

- Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində separatçı ermənilər tərəfindən başlanmış Ermənistan-Azərbaycan müharibəsində 1994-cü il mayın 12-də atəşkəsə nail olundu. Bundan sonra ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu, siyasi sistemin təkmilləşməsi istiqamətində mühüm addımlar atıldı və 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul olundu. Onun rəhbərliyi ilə həyata keçirilən düşünülmüş tədbirlər nəticəsində əvvəlki iqtidarların dövründən başlayan sosial-iqtisadi tənəzzülün qarşısı alındı və 1996-cı ildən inkişaf başladı. Təbii ki, bütün bunlar elə də asan başa gəlmədi. Azərbaycanın inkişafını, Heydər Əliyevin hakimiyyətdə olmasını istəməyən bəzi daxili və xarici anti-Azərbaycan qüvvələr 1994 və 1995-ci illərdə dövlət çevrilişinə cəhdlər etmiş, terror aktları törətmək istəmişlər. Lakin Azərbaycan dövlətinin və xalqının, onun liderinin əleyhinə yönəlmiş bu qanunazidd hərəkətlərin və separatizm əməllərinin qarşısı Heydər Əliyevin düşünülmüş, uzaqgörən siyasəti sayəsində vaxtında və yüksək peşəkarlıqla alındı.

Heydər Əliyev müstəqil və suveren Azərbaycanın daxili məsələlərini ustalıqla həll etməklə yanaşı xarici siyasətini də formalaşdırmağa başladı. Əvvəlki hakimiyyətlərin dövründə populist açıqlamalar, qeyri-real yanaşmalar nəticəsində qonşu ölkələrlə pozulmuş münasibətlər qaydasına salındı. Ümummilli liderin çoxsaylı xarici səfərləri ilə Azərbaycanın dünyanın öndə gedən dövlətlərlə xoşniyyətli əlaqələri yaradılaraq möhkəmləndi və respublikamıza uğur gətirən və bu gün də davam etdirilən xarici siyasət xəttinin təbiqinə başlandı. Azərbaycan həm Rusiya və həm də ABŞ və Avropa ölkələri ilə yaxın qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətləri yaratmağa nail oldu. Türkiyə ilə "bir millət-iki dövlət" prinsipi əsasında əlaqələr daha da möhkəmləndi.




Siyasi sabitlik əldə edildikdən və tərəfdaş ölkələrlə əlverişli əlaqələr qurulduqdan sonra ölkə iqtisadiyyatının inkişafı ilə bağlı çox ciddi islahatlara start verildi. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın gələcəyini müəyyənləşdirən neft strategiyası işlənib hazırlandı və həyata keçirilməyə başlandı. Ciddi təzyiqlərə, bəzi böyük dövlətlərin etirazlarına baxmayaraq Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi ilə bağlı "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmaq üçün Bakı- Tbilisi- Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin tikintisinə başlandı. Bütün bunlar ümummilli liderin özünün dediyi kimi Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasını təmin edən mühüm addımlar idi.

Ulu öndərimiz Heydər Əliyevin həyatının 30 ildən artıq bir dövrü Azərbaycan tarixinin parlaq səhifəsini, ölkənin dirçəliş, inkişaf mərhələsini təşkil edir. Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində (1969-1982) Azərbaycanı geridə qalmış aqrar respublikadan iqtisadiyyatı dinamik inkişaf edən qabaqcıl respublikaya çevirdi, Azərbaycanın müstəqil ölkə kimi yaşamasına möhkəm zəmin yaratdı. Görkəmli şəxsiyyət respublikamıza ikinci rəhbərliyi dövründə ölkəmizdə baş qaldırmış qardaş qırğınının tezliklə qarşısını aldı, Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından məharətlə çıxararaq müasir Azərbaycan dövlətinin qurucusu olduğunu sübut etdi. Heydər Əliyev ikinci dəfə müstəqillik əldə edən Azərbaycanı nəinki qoruyub saxladı, həm də ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmaqla onun dünyanın qabaqcıl ölkələri sırasına çıxmağını təmin etdi. Azərbaycan xalqı və Azərbaycan dövləti qarşısında misilsiz xidmətləri olan Heydər Əliyev sözün əsl mənasında dahi şəxsiyyət olduğunu sübut etdi.

***-Eldar müəllim, Qurtuluşdan başlanan inkişaf yolu ulu öndər Heydər Əliyevin şah əsəri olan Azərbaycana Zəfər sevincini yaşatdı. Ulu Öndərin ən böyük arzusu ərazi bütövlüyümüzün bərpası idi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli ordumuzun gücü sayəsində bu istəyimiz də reallığa çevrildi…***

-Heydər Əliyev Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətlərini şərh edərkən bildirmişdir: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizin, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib. Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib".

Ümummilli liderimiz Heydər Əliyevin bu müdrik kəlamları Onun müstəqil Azərbaycan dövləti, xalqımızın xoşbəxt gələcəyi naminə fəaliyyətinin manifestidir. XX əsr dünya tarixinin parlaq simalarından olan, xalqımızın müstəqillik arzusunu konkret dövlət modelində gerçəkliyə çevirərək milyonların qəlbində əbədi abidə ucaldan Ulu öndərimiz Heydər Əliyev həm də müstəqil Azərbaycanın inkişaf strategiyasının müəllifi kimi böyük ehtiramla anılır. Gəncliyində memar olmaq istəyən dahi şəxsiyyət möhtəşəm bir abidənin qurucusu olmuş, özünün şah əsəri olan müstəqil Azərbaycan dövlətini yaratmışdır.

Heydər Əliyev şəxsiyyətinin miqyası, böyüklüyü və əzəməti tarixin onun öhdəsinə buraxdığı taleyüklü məsələnin həllini təmin etmək qüdrətini nümayiş etdirdi. Bununla Azərbaycanın tarixində xilaskar lider adını daşımaq şərəfi məhz ömrünü, bütün qüvvə və bacarığını Azərbaycan xalqının azadlığı, müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş XX əsrin böyük siyasətçisi Heydər Əlirza oğlu Əliyevə qismət oldu. Ulu öndərimiz bu şərəfli missiyanı həm Azərbaycan Respublikasına birinci və həm də ikinci dəfə hakimiyyətə qayıdışı dövründə əyani surətdə sübut etdi. Bu gün siyasi baxışlarından asılı olmayaraq mütləq əksəriyyət etiraf edir ki, respublikamızın müstəqilliyinin ilk illərində üzləşdiyi problemlərin həlli məhz Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Bu fenomen şəxsiyyətin Azərbaycanın idarəçilik sükanı arxasına keçməsi, çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə mətinliklə sinə gərməsi xalqımızı vətəndaş müharibəsindən, ən əsası, müstəqilliyimizin itirilməsi təhlükəsindən qurtardı. Nəticə etibarilə bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratdı. Heydər Əliyev Azərbaycanın taleyinin sınağa çəkildiyi zamanlarda xilaskarlıqdan başlamış, müstəqil dövlətimizin yaradılması kimi şərəfli missiyanı uğurla, uzaqgörənliklə, müdrikliklə yerinə yetirdi. Məhz buna görə həmin dövrdə respublikamızın bütün guşələrindən qədirbilən xalqımız öz istək və arzularını bildirərək 15 iyunun qurtuluş günü kimi bayram edilməsi barədə çoxsaylı müraciətlər edirdi.

Mən, bütün bunları nəzərə alaraq Milli Məclisin deputatı kimi 1997-ci il iyunun17-də parlamentdə çıxış edərək iyunun 15-nin Azərbaycan xalqının milli qurtuluş günü haqqında qərarın qəbul olunması barədə təklif verdim. İlk dəfə mənim verdiyim bu təklif bir çox deputatlar tərəfindən dəstəklənərək on gün sonra, iyunun 27-də rəsmiləşdi və Milli Məclisin qərarı ilə 15 iyun- Azərbaycan xalqının milli qurtuluş günü elan olundu. Mən özümü xoşbəxt adam hesab edirəm ki, bu şərəfli missiya ilə çıxış etmək mənə nəsib oldu və xalqımız bu günü hər il böyük sevinclə Milli Qurtuluş bayramı günü kimi qeyd edir. Bu həm də gələcək nəsillərə və ölkə liderlərinə heç kimin və heç nəyin unudulmadığı haqqında tarixi bir mesajdır.

Müasir Azərbaycanın memarı və qurucusu dahi Heydər Əliyevin adı isə Azərbaycanın özü qədər əbədi olacaq, onun ideyaları gələcək yollarımıza daim nur çiləyəcəkdir. Heydər Əliyev Azərbaycan xalqına və dövlətçiliyinə bütün ömrü boyu şərəflə xidmət etməsi həm də onunla təsdiq olunur ki, bu dahi şəxsiyyət 2003-cü ildə Azərbaycanda Prezident seçkiləri ilə əlaqədar xalqa müraciətində özünün uzun illər formalaşdırdığı möhtəşəm siyasi kursu uğurla davam etdirə biləcək ünvanı dəqiq göstərməsidir. Həmin müraciətdə deyilir: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu öndərin bu tarixi müraciətindən keçən on doqquz il onun dediklərinin yüksək dərəcədə həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində dörd dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq Prezident seçilən İlham Əliyev Ümummilli liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını gündən-günə daha yaxşı gələcəyə apardığını sübut etdi.

44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan ordusunun qazandığı parlaq qələbə bu Qurtuluşun zirvəsi olmaqla ata vəsiyyətinin uğurla yerinə yetirilməsi və Heydər Əliyevin axıra çatdıra bilmədiyi taleyüklü məsələnin əzəmətli sonluğu oldu. Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi və siyasi tədbirlər sayəsində beynəlxalq təşkilatların hazırladığı müxtəlif reytinq cədvəllərində Azərbaycan Respublikasının yüksək yer tutması və daim irəliləməsi, digər ölkələrin dinamik inkişafında etibarlı əməkdaşlığı, habelə ölkə əhalisinin güzəranının daim yaxşılaşması və regionların sürətlə tərəqqisi son vaxtlar əldə etdiyimiz möhtəşəm nailiyyətlərin bir hissəsidir.

Bütün bunlar onu deməyə əsas verir ki, Heydər Əlirza oğlu Əliyev qədirbilən xalqımız tərəfindən həmişə dərin hörmətlə yad ediləcək, 15 iyun tarixi Milli Qurtuluş bayramı günü kimi qeyd edilərək yaddaşlara həkk olunacaq.

15 iyun - Milli Qurtuluş Günü... 15 iyun - Şuşa Bəyannaməsinin imzalandığı gün... Bu 15-lərin hər ikisi Azərbaycan tarixinin şanlı səhifələrini təşkil edir. 1993-cü ilin 15 iyunu... 2021-ci ilin 15 iyunu. Bu möhtəşəm tarixlərin hər ikisi bir ailə, onun görkəmli nümayəndələrinin bu xalq üçün misilsiz xidmətlərinin bəhrələridir. Ümummilli liderimiz Heydər Əliyev əgər 30 ilin əvvəlində Azərbaycanın xilası üçün xalqın tale payına çevrilmişdirsə, cənab İlham Əliyev 30 ilin 17 ilinin gərgin mübarizələrindən sonra Azərbaycanın gözü olan Qarabağın xilaskarına çevrildi. Tariximizə Zəfər yazıldı. Bu Zəfərin ardınca Şuşa Bəyannaməsinin imzalanması isə Zəfərimizə Zəfər qatan ikinci qələbəmizdir.

# Möhtəşəm 15-lər




## Qayıdışdan QURTULUŞA

Bu qayıdış mütərəqqi bir qayıdış idi. Böyük bir xalqın xilasına, var olmasına, müstəqil yaşamasına qayıdış idi. Bu qayıdış 1990-cı ildə ulu öndərimizin Moskvadan Naxçıvana qayıdışı idi. O qayıdış ki, qısa zaman kəsiyində Qurtuluşa aparan yol olacaqdı. Naxçıvandan başlanan yol bütün Azərbaycanın xilası, sabahı, gələcəyi olacaqdı.

Artıq həmin dövrdə Naxçıvandan müstəqilliyə doğru addımlar atılırdı. 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə o vaxt Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, "Sovet Sosialist" sözləri götürüldü, Naxçıvan Muxtar Respublikası adlandırıldı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi bayraq kimi qəbul edildi. Eyni zamanda, Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar addımı Azərbaycan Ali Soveti də etsin. Ancaq Ali Sovet bunu etmədi. Əksinə, 1991-ci ilin yazında Sovet İttifaqının saxlanmasına dair referendumda ovaxtkı Azərbaycan rəhbərliyi xalqın iradəsinə zidd olaraq o referendumun nəticələrini saxtalaşdıraraq Sovet İttifaqının saxlanmasına səs verdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında isə yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunarkən məsələ ilə bağlı çıxış edən ulu öndər deyirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsi heç də keçmiş Sovetlər İttifaqı rəhbərliyinin nüfuzlu simasının kiçik bir əyalətə rəhbər seçilməsi deyildi. Bu, Azərbaycanı çox yaxşı bələd olduğu ittifaqın caynağından qoparmaq üçün yolun başlanğıcı idi. Naxçıvanda yaşadığı halda Azərbaycanı idarə etmək qabiliyyətinin, xalqın müstəqillik arzusunu reallaşdırmaq bacarığının, tarixi sənədlərin qəbulu və həyata keçirilməsi əzminin nümayişi idi.

Azərbaycan 30 ilin əvvəlində müstəqillik uğrunda mübarizəyə qoşulan, elə buna görə də sosial-iqtisadi gərginliyə sürüklənən, səsini çıxarmasın deyə başına min bir oyunlar açılan ölkə idi. "Azadlıq, azadlıq..." çağırışları, mücadiləıləri qarşılığında torpaqları işğal olunan bir xalq idi. Paytaxtınadək şovinist əllərin, yırtıcı düşüncələrin uzandığı ölkə idi. Çünki isanlar müstəqillik, azadlıq istəyirdi. Bu isə heç də təbii qarşılanmır, xalq azadlıq deyənin dilinin kəsilməsi, müstəqillik istəyənin ruhunun məhv edilməsi burulğanında çabalayırdı. Ölkə rəhbərləri isə belə bir vəziyyətdə yenə də öz kreslolarını qorumağa davam edir, "qardaşlarının" hər əmrinə tabe olmaqla, doğma qardaşlarını olmazın fəlakətləri ilə üz-üzə qoyurdular. Belə bir dövrdə ulu öndər Naxçıvandan Bakıya çağırıldı. Azərbaycanın artıq tənəzzülə uğradığını, məhv olduğunu, parçalandığını görən xalqın son çarəsi bundan başqa heç nə deyildi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. 1993-cü il oktyabrın 3-də isə ümummilli lider xalqımızın böyük əksəriyyəti tərəfindən Prezident seçildi.

Böyük öndər millətinin əsl xilaskarına çevrildi. Bir-birinin ardınca satılmaqda olan torpaqların coğrafiyasının genişlənməsinin qarşısını aldı. Birinci Vətən Müharibəsinin acıları, fəlakətləri, çətinlikləri fonunda Azərbaycanı dirçəltməyə nail oldu. Ən əsası isə ölkənin iqtisadi vəziyyətini yüksəltməklə ordu quruculuğunun-ölkənin müdafiə potensialının, eyni zamanda İkinci Vətən Müharibəsində qələbənin təməlini qoydu. Ümumilikdə, Azərbaycanda yeni bir Azərbaycan yaratdı ulu öndərimiz. O Azərbaycan ki, artıq müstəqil, azad oldu. Dünyanın tanıdığı, dünyaya çıxışı olan, beynəlxalq müqavilələrin imzalandığı bir məkana çevrildi.

Bəli, möhtəşəm qayıdışdan Qurtuluşa aparan yol belə nəticələndi. Bu yol əsrlər keçsə də unudulmayacaq, nəsillərdən-nəsillərə ötürüləcək, bu xalq yaşadıqca yaşayacaq bir tarixidr. Bu tarix hər bir azərbaycanlının həyatında xüsusi yeri olan, ona müstəqil yaşamaq kimi dəyəri bəxş edən bir tarixdir.

## Qarabağ Zəfəri

Birinci Vətən müharibəsi ilə İkinci Vətən müharibəsi arasındakı zaman kəsiyi bir gün Qarabağın işğaldan azad olunması üçün mübarizə dolu illər oldu. Azərbaycanın hərtərəfli inkişafı, tərəqqisi fonunda hələ də öz həllini tapa bilməyən Qarabağ problemi. Cənab Prezidentimizin 17 il ərzində beynəlxalq təşkilatlarla apardığı danışıqlara, qan tökmədən, müharibə etmədən torpaqlarımızın qaytarılması üçün etdiyi cəhdlərə baxmayaraq, həmin təşkilatların susması sükutun hayqırtısı ilə nəticələndi. Ermənilərin yeni torpaqlar işğalı məqsədilə sərhədlərimizdə yaratdıqları təxribatlar Ali Baş Komandanın Azərbaycan Silahlı Qüvvələrinə əmri ilə müharibənin başlanmasına səbəb oldu. İkinci Vətən müharibəsi başlandı. 30 ilin əvvəli ilə axırının müqayisəsi başladı. 30 ilin əvvəlindəki Azərbaycanda gördüklərinə bənzər mənzərə ilə qarşılaşacaqlarını, yenə də yeni torpaqlar işğal edəcəklərini düşünən düşmən bu dəfə xəyal qırıqlığına uğradı. 44 gündə ordusu məhv edildi. Yalvarmağa, diz çökməyə məcbur oldu. Azərbaycan Ordusu anası Azərbaycandan 30 il aralı qalmış Qarabağın hər bir yurdu uğrunda can qoydu. 30 ildə gücləndirilmiş ordumuz Qarabağın xilaskarı oldu. Minlərlə şəhid verdik, qazilərimiz, itkinlərimiz oldu, lakin Zəfər də Azərbaycan xalqının oldu. Çünki bu haqq işi idi millətimizin. Əzəli torpaqlarına qayıtmaq, onları ana Vətənə qaytarmaq, minlərlə köçkün, qaçqının yurd həsrətinə son qoymaq idi məqsəd. Ümummilli liderimizin bir zamanlar böyük narahatlıqla söylədiyi "... İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir" kimi dəyərli fikirlərinin öz həllini tapması, Qarabağın azadlığı ilə bağlı ata vəsiyyətinin yerinə yetirilməsi idi.

2020-ci ilin payızında Qarabağa erkən bahar gəldi. O bahar ta yerini başqa bir fəslə vermir. Bahar bürüyüb Qarabağı. Gül-gülə, çiçəkçiçəyə qarışıb və qədim yurd yerlərimizin abadlaşdırılması ilə bir harmoniya yaradıb. Şuşada keçirilən tədbirlər də bu yurd yerlərimizdə zəfərdən bəri görülən işlərin kontekstində "Şuşa Qarabağın tacıdır",- deyən cənab İlham Əliyevin bundan sonra da böyük diqqət və qayğısı sayəsində, ümumilikdə, Qarabağın dirçəlişi ilə nəticələnəcək. Çünki necə ki, 30 ilin əvvəlində Şuşa işğal olunmaqla Qarabağ itirilmişdi, onun inkişafı ilə də bütün Qarabağ taclanacaq, öz gözəlliyinə qovuşacaqdır. Zəfərimizin ardınca Şuşa şəhərində tarixi Şuşa Bəyannaməsinin imzalanması isə Zəfərimizə yeni Zəfər qatdı...

## Şuşa Bəyannaməsi - Qurtuluşun təntənəsi

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi 1993-cü ildən başlanan Qurtuluş yolunun uğurlu davamıdır. Bəyannamə 2022-ci il fevralın 1-də Azərbaycanda, 3-də isə qardaş ölkədə tarixi sənəd kimi rəsmi surətdə ratifikasiya edildi.

Şuşa Bəyannaməsinin preambulasına baxdıqda Azərbaycan ilə Türkiyə arasında imzalanan tarixi sənədlər xatırlanır. Belə ki, Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq Müqaviləsinə, Azərbaycan-Türkiyə Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım müqaviləsinə istinad edən Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyə arasındakı əməkdaşlığı ən yüksək mərhələyə qaldıraraq Qafqazda uzunmüddətli sülhün bərqərar olmasına yardım etməyi nəzərdə tutur.

Sənəddə qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar: "Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır".

Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Təbii ki, öncə söhbət bölgədə əsrlərdir erməni məsələsi adı altında öz dövlət maraqlarını reallaşdıran kənar oyunçulardan gedir. Digər tərəfdən, bütün qonşu dövlətlər və dünya ictimaiyyəti bilməlidir ki, Azərbaycanın dövlət suverenliyini təhdid etmək fikrinə düşənlər yeni regional hərbi-siyasi blokla qarşılaşacaqlar.

Bəyannamədə tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqların işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi. Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir

Ermənistanın Türkiyəyə qarşı əsassız iddiaları və tarixi təhrif etmək cəhdlərinin regionda sülh və sabitliyə xələl gətirdiyi vurğulanan Bəyannamədə Türkiyə ilə Azərbaycanı birləşdirən Zəngəzur dəhlizinin, Naxçıvan-Qars dəmir yolunun açılması da nəzərdə tutulur. Bütün sahələrin qarşılıqlı inkişafı ilə əlaqəli bəndlərin yer aldığı Şuşa Bəyannaməsi Qarabağ Zəfərinin davamı, zəfərimizin üzərinə yeni bir zəfər əlavə edən, böyük əhəmiyyətə malik ikitərəfli sənəddir.

Möhtəşən 15-lərin birinin Qurtuluş Günü, digərinin isə Şuşa Bəyannaməsi ilə əlaqədar olması böyük qürur hissi yaşadır insana. Eyni zamanda bu iki böyük tarixin ayrı-ayrı illərin eyni gününə təsadüf etməsi iki böyük tarixin yaşadılmasına, bir-birinin mahiyyətini açması etibarilə gələcək nəsillərin onları xronoloji ardıcıllıqla öyrənməsinə xidmət edir.

Möhtəşən 15-lər həmçinin oxşar həyatın, fəaliyyətin təntənəsidir. Yaxşı ataların əməlinin, işinin yaxşı oğullar tərəfindən davam etdirilməsi, ata vəsiyyətinin reallaşdırılması, ümumilikdə isə xalqa, Vətənə məhəbbətin, sadiqliyin təzahürüdür. Bütün bunların fonunda isə böyük bir xalqın sevgisini qazanmaq və tarixində əbədiyyən Qalib Sərkərdə kimi yaşamaqdır. Sizinlə qürur duyuruq, cənab Prezident!

***Mətanət Məmmədova***








# "Qurtuluşdan Zəfərə!"

İyunun 13-də Ağcabədi rayon Mədəniyyət Mərkəzində Milli Qurtuluş Gününün 29-cu ildönümü münasibətilə "Qurtuluşdan Zəfərə" mövzusunda Regional Konfrans keçirilmişdir. Konfransdan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə çiçək dəstələri qoyularaq onun əziz xatirəsi ehtiramla yad edildi. Konfransda Milli Məclisin deputatları Tahir Rzayev, Fatma Yıldırım, Bəxtiyar Sadıqov, Aqil Məmmədov, Mahir Abbaszadə, Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Elmar Məmmədov, Yeni Azərbaycan Partiyasının Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa, Tərtər, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayon təşkilatlarının sədrləri, Ağcabədi rayon İcra Hakimiyyətinin Başçısı Rafil Hüseynov, həmçinin YAP Ağcabədi rayon təşkilatının ərazi təşkilat sədrləri, YAP fəalları, şəhid ailələrinin üzvləri, qazilər, Partiya veteranları, iş adamları iştirak etmişlər.Konfransı YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov açaraq qonaqları salamlamış, dəvəti qəbul edərək konfransa qatıldıqları üçün qonaqlara təşəkkür etmişdir.Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın Dövlət Müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Azərbaycanın Dövlət Himni səsləndikdən sonra konfrans işinə başlamışdır.

Konfransda Milli Məclisin deputatı, Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev "Aqrar sahənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir" mövzusunda, Milli Məclisin deputatı, Təbii ehtiyyatlar, Energetika və Ekologiya Komitəsinin və Elm, Təhsil Komitəsinin üzvü Fatma Yıldırım "İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işlərində ekoloji amillər" mövzusunda, Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Elmar Məmmədov "Qurtuluşdan başlayan davamlı inkişaf yolu" mövzusunda, Yeni Azərbaycan partiyası Füzuli rayon təşkilatının sədri Almaz Həşimova "Milli elm və təhsilin inkişafı Heydər Əliyev siyasi kursunun uğurudur" mövzusunda, Yeni Azərbaycan Partiyası Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev "Ölkənin siyasi sistemində Yeni Azərbaycan Partiyasının rolu" mövzusunda, Ağcabədi rayon İcra Hakimiyyətinin Başçısı Rafil Hüseynov "Qurtuluş Böyük Qələbəyə aparan yolun başlanğıcı idi" mövzusunda çıxış etmişlər. Konfransın gedişində zalda əyləşən YAP fəallarının müxtəlif mövzularda verdikləri suallar millət vəkilləri Tahir Rzayev və Fatma Yıldırım tərəfindən cavablandırıldı. Tədbir bədii hissə ilə yekunlaşdı.

***Zümrüd***

# Dərs tapşırığı... Həyat tapşırığı...

**Bu günədək onların aldığı yalnız dərs tapşırığı idi. Ayrı-ayrı fənlərdən aldıqları tapşırıqlar: şifahi oxu tapşırıqları, yazılı tapşırıqlar, sinifdənxaric tapşırıqlar. Düz 11 il aldıqları dərs tapşırıqları ilə böyüdülər, öyrəndilər, elmin sirlərini zərrə-zərrə əxz etdilər.**

Uşaqlıqdan çıxıb yeniyetmə oldular, böyüdülər, gəncləşdilər. Yenə də müəllimlərinin gözündə dünən birinci sinfə gələn uşaqlar kimi uşaq qaldılar. Necə ki, ata-ananın gözündə övladı hər yaşda uşaqdır, eləcə də müəllimlərin gözündə də hər bir şagirdi ilk gün məktəbə gələn o məsum uşaqdır...

Böyüdülər o uşaqlar. müəllimlərinin sayəsində elmin sirlərini əxz etdilər. Kitablarla tanış oldular, onlarla dostlaşdılar, sirdaş, həmdərd oldular. Onlardan öyrəndilər, yüzlərlə dərs tapşırığı aldılar o kitablardan. Çalışdılar, o tapşırıqları həll edib səhəri gün məktəbə götürdülər. 11 il çantalarında kitab, dərs tapşırığı apardılar, gətirdilər...

Bu gündən minlərlə gənc müstəqil həyata vəsiqə aldı. Ümumtəhsil məktəblərimizdə çalınan son zəng ayrılıq zamanının çatdığını göstərdi. 11 il parta arxasında uşaqlıq, yeniyetməlik, gənclik çağlarını yaşayan, məktəb həyatı ilə bağlı hər biri bir "xatirə kitabı" yazan şagirdlər məzun oldular. On bir il müəllimlərinin qarşısında cərgə-cərgə əyləşib, zərrə-zərrə böyüyən məktəblilər-2021-2022-ci tədris ilinin məzunları həyatlarının ən şirin çağı olan uşaqlıq illərini, məktəbli ömrünü başa vurdular. İlləri bir-bir başa vuran şagirdlər on bir illik məktəb həyatının axırıncı günündə son zəngi vuraraq müstəqil həyata ilk addımlarını atdılar.

Son zəng... Bir yolun bitdiyinə, o biri yolun başlandığına səsləyən son zəng... Dərs tapşırıqlarından həyat tapşırıqlarına çağırış. Ta bir də qapılarını aça bilməyəcəyin məktəb həyatının son nöqtəsidir son zəng. Sənin yolunu dəyişən, 11 ildə hər günkü eyniliyi həyatından çıxarandır son zəng...

Səni tələbəliyə yolçu edəndir, xeyir-duadır son zəng... Müstəqil həyatda hər hansı bir sənəti öyrənməyə, ailə qurmağa yolçu edəndir son zəng. O çalındısa, artıq müstəqil bir yolun var, o yolla getməyə



başlayacaqsan. O yolda tapşırıqları isə həyatdan alacaqsan...

Həyat tapşırığı... Bu dərs tapşırıqları qədər asan olmayacaq, əziz dost. Ətrafında müəllimlərin olmayacaq, sən hasarlı bir məktəbdə, dörd divar arxasında əmin əllərdə olmaycaqsan. Müstəqilsən, ətrafında həyat çağlayır. Burada ataana da, bacı-qardaş da, qohumlar, yaxınlar da var, lakin minlərlə yadlar, tanımadıqların da var. Onların hər biri bir həyat dərsidir. Hər kəs öz verdiyi dərsi hazırlamanı istəyəcək səndən. Bu an ağıllı olmalısan. Elə "kitablar" var ki, heç onları açmamalı, oxumamalısan. Lakin elələri də var ki, dəfələrlə oxumanı tövsiyə edərəm. Çünki o kitablar sənin həyat tapşırığını düzgün, vaxtında yerinə yetirməyinə kömək edəcək.

Həyat dərsi... Çox mürəkkəbdir, çox məsuliyyətlidir. Səndən güç, cəsarət istəyəcək. Bütün bunları özündə tapa biləcəksənsə, qalib olacaqsan, xoşbəxt olacaqsan. Əks təqdirdə isə əksinə...

Yaxşı-yaxşı düşün, əziz dost, qarşıda hələ uzun illərin var. O illəri də məktəb illəri kimi uğurla başa vurarsansa, həyat tapşırığını da dərs tapşırıqların kimi çalışarsansa, deməli həyat sənindir.

Qoy uğurlar sizlərin olsun, əziz məzunlar. Xoşbəxt, səadət dolu günlər addım-addım sizi işləsin. Sizin həyat tapşırığını layiqincə yerinə yetirməniz cəmiyyətimizin qazancıdır, uğuru, qələbəsidir. Çünki bizim siz gənclərə ehtiyacımz var. Qalib bir ölkənin gəncləri olaraq bu Vətənin sabahı sizsiniz. Biz sizə arxayınıq. Biz sizdən gözləyirik. Biz sizə əminik. Yeni həyatınız uğurlu olsun ki, o uğurlardan bizlər də pay alaq...

Bir də heç vaxt unutmayacağınız bir şey var: Məktəb illəri; ömrün qayğısız keçən illəri. Qarşıdakı illər; ömrün qayğı ilə keçəcək illəri...

***Mətanət MƏMMƏDOVA***

# Şuşa Bəyannaməsi regionumuzda sülhü və rifahı bərqərar edəcək

**15 iyun tarixində - Azərbaycan xalqı yenə tarixi günlərdən birinə şahidlik etdi. 2021-ci il 15 iyunda Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalandı. Beləliklə, Şuşa Bəyannaməsi Milli Qurtuluş Gününü daha da əzəmətləndirdi. Belə ki, Şuşa Bəyannaməsi ilə iki ölkə arasındakı tarixi köklərə malik əlaqələr yenidən siyasi, hüquqi müstəvidə öz əksini tapdı.**

Bu baxımdan, Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında tarixi Şuşa Bəyannaməsinin imzalanmasından sonra keçirilən mətbuat konfransında iki güclü qardaş liderlərin hər bir sözü, fikri bölgənin gələcək inkişafı və region ölkələrinin gələcək yol xəritələri ilə bağlı ipuclarının verilməsi baxımından əlamətdar idi. Ancaq hər şeydən əsas Şuşa Bəyannaməsi iki qardaş ölkə arasında münasibətlərin keyfiyyətcə tamamilə yeni mərhələyə qədəm qoymasını xarakterizə edirdi. Bu müqavilə ilə iki ölkə arasındakı tarixi köklərə malik əlaqələr yenidən siyasi, hüquqi müstəvidə öz əksini tapdı.



*AYAZ QULİYEV,*
*YAP Xızı rayon təşkilatının sədri*

Bu gün tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək strateji tərəfdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Prezident İlham Əliyevlə Prezident Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Bu mənada, Prezident İlham Əliyev- Prezident Rəcəb Tayyib Ərdoğan birliyi və həmrəyliyi, dövlət başçılarının bir-birinə qardaşım deyərək müraciət etmələri xalqlarımız üçün də, dünya birliyi üçün də nümunədir. Bütün dünya bu qardaşlığı 44 günlük Vətən müharibəsi zamanı da müşahidə etmişdi. Məhz, həmin dövrdə Türkiyənin bütün dövlət strukturları Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Məhz, əldə olunmuş zəfərin siyasi zirvəsi olan Şuşa görüşü də dünyaya 44 günlük müharibə dönəmində olduğu kimi mühüm mesajdır.

Qardaş ölkənin Prezidenti Rəcəb Tayyip Ərdoğanın Azərbaycana səfəri çərçivəsində Şuşada olması, rəsmi qəbulun təşkili, Prezident İlham Əliyevlə görüşü, birgə bəyanatın imzalanması və mətbuat konfransının keçirilməsi, eyni zamanda "Xan qızı" bulağının ziyarəti, Cıdır düzündə tədbirlərin təşkili bir daha iki qardaş ölkənin birgə yolunun və uğurunun sevincinin paylaşımı hadisələridir. Həmçinin, Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə qardaşlığının zəfər zirvəsi oldu. Heç şübhəsiz ki, Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyəti var. Bu sənədin imzalanması ilə Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoyur. Bu tarixi sənəd Azərbaycan və Türkiyənin regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərini qarşılıqlı şəkildə əlaqələndirməklə, ölkələrimizin əməkdaşlıq, təhlükəsizlik proseslərində rolunu, nüfuzunu daha da artıracaq. Cənab Prezident İlham Əliyevin dediyi kimi, imzalanmış Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır.

Prezident İlham Əliyev qeyd edib ki, Bəyannamədəki hər bir məsələnin çox mühüm əhəmiyyət daşıyır: "Mən onların arasında iki məsələni xüsusilə qeyd etmək istərdim. Birincisi, bu Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Bu, tarixi nailiyyətdir. Biz bir daha göstəririk ki, bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik. Necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq.Önəmli məsələlər arasında ikincisi nəqliyyat məsələsidir. Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyə ilə Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, biz əməli, praktiki işlərlə bu dəhlizi yaradırıq. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır", - deyə dövlətimizin başçısı vurğulayıb.Onu da qeyd edək ki, ölkə başçımız mətbuat konfransındakı nitqində tarixi Bəyannamənin imzalanmasında əcdadlarımıza sadiqlik nümayiş etdirildiyini və gələcək nəsillərə yol göstərildiyini vurğuladı.

Açıq şəkildə demək olar ki, tarixi Bəyannamədə strateji əhəmiyyətli bütün məsələlər öz əksini tapıb. Belə ki, ticarət və iqtisadiyyat sahəsində, mədəniyyət, təhsil və gənclər siyasəti məsələlərində əməkdaşlığı nəzərdə tutan bu bəyannamə eyni zamanda hərbi müddəaları da özündə əks etdirir. Bəyannamə ilə Azərbaycan-Türkiyə hərbi-siyasi müttəfiqliyi rəsmiləşdirildi. Belə ki, hərbi əməkdaşlıq və birgə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş fəaliyyətlərin təşviq edilməsi, tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə birgə müdafiə addımlarının atılması kimi müddəalar da yer almışdır. Bununla yanaşı Zəngəzur dəhlizi ilə bağlı konkret ifadələrin də öz əksini tapdığı sənəd sözün əsl mənasında müstəqillik tariximizin ən vacib və geniş məzmunlu sənədlərindən biridir.Mətbuat konfransının ən yaddaqalan anlarından biri də şübhəsiz ki, cənab Ərdoğan tərəfindən altılı platforma ilə bağlı səslındirilən fikirlər idi. Şuşa Bəyannaməsinin imzalanmasının tarixi əhəmiyyətini xüsusi vurğulayan Prezident Ərdoğan deyib: "Türkiyə ilə Azərbaycan arasındakı bu bəyannamə bir sıra məsələləri əhatə edir. Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük".

Bir sözlə, ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətləri Şuşa Bəyannaməsi ilə zirvə mərhələsinə qədəm qoydu. 44 günlük İkinci Qarabağ müharibəsi həqiqət anı kimi iki dost, qardaş ölkənin birliyinin dünyaya təqdimatında əhəmiyyətli rol oynadı. İlk gündən Azərbaycanın tək olmadığını bəyan edən Türkiyə Prezidenti sonadək mənəvi və siyasi dəstəyini göstərdi. Azərbaycan dövləti bu dəstəyi daim yüksək qiymətləndirir. Birliyimiz tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz və maraqlarımız, xalqlarımızın qardaşlığı əsasında daha da möhkəmlənərək, bu fikrin böyük inamla qeyd edilməsinə əsas verir ki, Azərbaycan və Türkiyə yalnız dost deyil, qardaş ölkədir. Məhz bu qardaşlıq fonunda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində birgə səylərin artırılmasının zəruriliyi imzalanan Şuşa Bəyannaməsində öz əksini tapır. Beləliklə, sonda bir daha vurğulayaq ki, Şuşada təşkil olunan bu görüş, imzalanan Bəyannamə tariximizə qızıl hərflərlə yazıldı və nəhayət bütün erməni xalqı da qəbul etməlidir ki, Qarabağ tarixi Azərbaycan torpağıdır və heç bir şey azərbaycanlıları bu torpaqlardan çıxara bilməz. Artıq reallıqla barışmaq və gələcəyə baxmaq lazımdır. Və bu gün qürurverici haldır ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu və qardaşlığı bu gün də uğurla davam edir, xalqlarımız arasındakı saf, səmimi və doğma münasibətlər daha da dərinləşərək yeni mərhələyə qədəm qoyur. Bütün bunlar onu göstərir ki, əbədi və əzəli Azərbaycan-Türkiyə birliyi, dostluğu və qardaşlığı sarsılmazdır və daim belə də olacaq.

---

# "Şəhid ailələrinə olan qayğı hər zaman Prezidentin diqqətindədir"

**"Şəhid ailələrinə olan qayğı Azərbaycan dövlətinin və şəxsən cənab Prezident İlham Əliyevin hər zaman diqqətindədir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə bildirib.**



Onun sözlərinə görə, onların problemlərinin həlli dövlətimizin proritet məsələlərindən hesab edilir və bu istiqamətdə bir çox işlər görülür: "Bir çox şəhid ailələri evlərlə təmin edilərək, onların yadigarı hesab olunan övladlarının da ali məktəb haqları dövlət tərəfindən ödənilir və onların müavinətləri ildən-ilə artırılır. Həmçinin onların sosial problemləri həm yerli, həm də mərkəzi icra hakimiyyəti orqanlarının diqqətindədir. Cənab Prezident hər dəfə çıxışlarında qısa zamanda bütün şəhid ailələrini mənzillə təmin edəcəyi barəsində bəyanatlar verir. Bu il 1500 şəhid ailəsinin mənzillə təmin edilməsi böyük bir hadisədir. Qeyd edim ki, bu il ərzində mənzillə təmin edilən şəhid ailələrinin sayında ən böyük rəqəmdir. Bu özü göstərir ki, bu proses çox çəkməyəcək və heç bir şəhid ailəsi mənzilsiz qalmayacaq. Dövlətin bu kateqoriyadan olan insanlara daha çox sosial qayğı göstərməsi barəsində yeni-yeni lahiyələr həyata keçiriləcək. Cənab Prezidentin apardığı siyasət dövlətimizin möhkəmlənməsinə, dövlət qarşısında olan məsələlərin həllinə, eyni zamanda iqtisadiyyatımızın güclənməsinə və büdcəmizin artmasına səbəb olacaq. Həmçinin bütün bu məsələlər şəhid ailələrinin daima xidmətdə saxlanılmasına diqqət edəcəkdir".



***Banuçiçək Hüseynli***

# “Heydər Əliyevin xilaskarlıq missiyası müstəqilliyimizin dönməzliyini təmin etdi”

*YAP Göygöl rayon təşkilatı tərəfindən Qurtuluş Günü münasibətilə tədbirlər keçirilib*

YAP Göygöl rayon təşkilatı üzrə 3 nömrəli Psixonevroloji Sosial Xidmət Müəssisəsi ərazi partiya təşkilatında 15 iyun Milli Qurtuluş Günü münasibətilə ”Heydər Əliyevin xilaskarlıq missiyası müstəqilliyimizin dönməzliyini təmin etdi” mövzusunda dəyirmi masa keçirilmişdir. İlk öncə bir qrup YAP fəallarının iştirakı ilə YAP Göygöl rayon təşkilatının qarşısındakı Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, abidə önünə gül dəstələri düzülüb. Ərazi partiya təşkilatında keçirilən tədbir zamanı YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev iştirakçıları salamladıqdan sonra Azərbaycan Respublikasının qurucusu Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev giriş nitqi ilə çıxış edərək, 15 iyun gününün Azərbaycan xalqının tarixində ən əlamətdar günlərdən biri olmaqla, zaman-zaman tarixin çətin sınaqlarına məruz qalan xalqımızın xilası günü kimi daxil olduğunu vurğulayaraq, Azərbaycanın öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşdığı zaman nicat yolunu Ulu Öndərdə görən müdrik xalqımızın Heydər Əliyevin ölkə rəhbərliyinə gəlməsini tələb etdiyini, məhz Ümummilli Liderin rəhbərliyi altında dövlətçiliyimizin itirilməsi təhlükəsinin uğurla dəf olunduğunu, eyni zamanda böyük mənəvi sərvətlərimizdən biri olan milli birliyimizin qorunub saxlandığını bildirmişdir.

Vüqar İsayev qeyd etmişdir ki, uzun illər idarəçilik sükanı arxasında olmuş görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin təcrübəsi məhz 15 iyun günü Azərbaycan xalqının öz müstəqilliyini və birliyini qorumaq istəyi ilə birləşərək dağılmaq ərəfəsində olan ölkəmizi xilas etdi. Xalqın siyasi iradəsini əks etdirən bu birliyə arxalanan Heydər Əliyevin xilaskarlıq missiyası ölkəni vətəndaş





müharibəsindən, daxili hərc-mərclikdən ləyaqətlə çıxara bildi. Daxili sabitlik, iqtisadi islahatlar, demokratik mühitin gücləndirilməsi, ölkə iqtisadiyyatının davamlı inkişafını, Avropaya inteqrasiyanın və regionda həqiqi güc mərkəzinə çevrilməsini şərtləndirdi.Dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə əsaslanan Heydər Əliyev siyasi kursunu 2003-cü ildən etibarən

inamla davam etdirən Möhtərəm Prezidentimiz cənab İlham Əliyev Ulu Öndərin milli dövlətçilik fəlsəfəsinə istinad edir və bu gün cənab İlham Əliyevin həyata keçirdiyi çox sahəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Ulu Öndərin zaman baxımından başa çatdıra bilmədiyi bütün işlər Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən layiqincə yerinə yetirilir. Bunu Ulu Öndərin ”Biz torpaqlarımıza qayıdacağıq” ifadəsinin reallaşması, torpaqlarımızın işğaldan azad olunması və Möhtəşəm Zəfərin əldə olunması sübut edir. Çıxışının sonunda YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev Milli Qurtuluş Günü münasibəti ilə tədbir iştirakçılarını təbrik edərək Müstəqil Azərbaycan Respublikasının günü-gündən inkişafı və çiçəklənməsi naminə fəaliyyətlərində müvəffəqiyyətlər arzulamışdır. Sonra ərazi partiya təşkilatının sədr müavini Aygün Əhmədova ”Heydər Əliyevin xilaskarlıq missiyası müstəqilliyimizin dönməzliyini təmin etdi” adlı məruzə ilə çıxış etmiş, tədbirin gedişində digər partiya fəalları Azərbaycan tarixinin ən şanlı səhifəsi olan ”Qurtuluş Günü”nün xalqımıza bəxş etdiyi töhfələrdən, əldə olunan yüksək nailiyyətlərdən danışmış, Müstəqil Azərbaycanın bu günü və xoşbəxt gələcəyi üçün Ulu Öndər Heydər Əliyevə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq ifadə etmişlər. Tədbirin sonunda partiya üzvlüyünə yeni qəbul olunmuş bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub.

# YAP Nərimanov rayon təşkilatında Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib

14 iyun 2022-ci il tarixdə YAP Nərimanov rayon təşkilatında 15 iyun Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib.Tədbirdə Nərimanov rayon icra hakimiyyətinin başçısı Elgin Həbibullayev, YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev, YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə, Nərimanov Bələdiyyəsinin sədri Təmraz Tağıyev, Nərimanov rayonunda yerləşən Dairə Seçki Komissiyalarının sədrləri, rayon ictimaiyyəti, ərazi partiya təşkilatlarının sədrləri və fəal gənclər iştirak ediblər. Tədbirdən öncə YAP Nərimanov rayon təşkilatının foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə tər gül dəstələri qoyulub.İlk öncə Azərbaycan Respublikasının Dövlət Himni səslənib, ardınca ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra xalqımızın taleyində və tarixində silinməz izlər qoymuş Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışını zəruri edən tarixi faktları özündə əks etdirən qısametrajlı film nümayiş olunub.







Tədbiri giriş sözü ilə aaçan YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev tədbir iştirakçılarını Azərbaycan xalqının və dövlətinin taleyində mühüm əhəmiyyətə malik olan Qurtuluş Bayramı münasibətilə tədbir iştirakçılarını təbrik edib, Milli Qurtuluş Gününün Azərbaycanın müasir tarixində və inkişafında olan rolundan geniş bəhs edib.Tədbirdə çıxış edən YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə və Nərimanov rayon icra hakimiyyətinin başçısı Elgin Həbibullayev qeyd ediblər ki, Azərbaycanın çağdaş tarixi Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında hakimiyyətə gəlməsi ilə bilavasitə əlaqədardır. Həmin dövrdə Azərbaycan böyük təhlükələrlə üzləşmiş, respublika parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Müstəqilliyin əvvəllərində Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildiriblər. Qeyd edilib ki, Ulu Öndərin işləyib hazırladığı müasir, müstəqil dövlət quruculuğu konsepsiyası müasir ölkə rəhbəri, Ali Baş Komandan İlham Əliyevin idarəçiliyi altında 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub. Tədbirdə, həmçinin, Nərimanov Bələdiyyəsinin sədri Təmraz Tağıyev, 20 saylı dairə Seçki Komissiyasının sədri Musa Musayev, Azərbaycan Kooperasiya Universitetinin və Kollecinin mətbuat xidmətinin rəhbəri Tamerlan Əkbərov nitq söyləyərək bildiriblər ki, bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadığı vurğulanıb.Tədbirdə YAP Nərimanov rayon təşkilatının ictimai-siyasi həyatında aktiv iştiraka görə bir qrup ərazi partiya təşkilatlarının sədrlərinə fəxri fərmanlar, könüllü gənclərə sertifikatlar, Partiyaya yeni üzv olmuş şəxslərə isə Partiya üzvlük vəsiqələri təqdim olunub.

Sonra tədbir konsert proqramı ilə davam edib.



# YAP Laçın rayon təşkilatında Qurtuluş Günü münasibətilə tədbir keçirilib

Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının qərargahında 15 iyun-Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib. Tədbirdə ictimai-siyasi fəallığına görə fərqlənən bir qrup YAP fəalına ”Fəxri Fərman”lar və yeni qəbul olan bir qrup üzvə partiya biletləri təqdim olunub. Tədbirdə YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov, tədbir iştirakçıların təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

TƏRS BAXIŞ

# Etibar Məmmədovun fikirləri və AXC-Müsavat cütlüyünün cinayətləri

**AMİP lideri: ”Surət Hüseynovun da xidmətlərinə qiyməti məhz AXC hakimiyyəti verib, ona Milli Qəhrəman adı verib, onu korpus komandiri, prezidentin Qarabağ üzrə səlahiyyətli nümayəndə, baş nazirin müavini vəzifələrinə təyin edib...”**



Sirr deyil ki, 90-cı illərin əvvəlində dövlətçiliyimizin təməllərini sarsıdan əsas qüvvələrdən biri də birillik hakimiyyətləri ilə ölkədaxili vəziyyəti daha da gərginləşdirən AXC-Müsavat cütlüyünün iqtidarı olub. Və maraqlı məqamlardan biri də budur ki, həmin vaxtlar hakimiyyət kürsülərini bölüşən insanların bir çoxu indi ya fərqli-fərqli partiyalarda təmsil olunur, ya da həmin partiyalara rəhbərlik edirlər, yaxud ümumiyyətlə siyasi arenanı tərk etməyi daha üstün tutublar. Məhz bu xüsusda hələ də bir çox suallar doğuran 4 iyun Gəncə hadisələri ətrafında çoxsaylı fikirlər bildirilir, iddialar irəli sürülür, ittihamlar səsləndirilir.

Ancaq məsələnin daha bir mahiyyəti budur ki, həmin vaxtlarda siyasi səhnədə var-gəl edən axecepeçilərin və müsavatçıların əksəriyyəti bu gün də özlərini müxalifətdə görür, qardaş qırğınlarının, xaos və anarxiya hallarının baş verməsində yaxalarını kənara çəkirlər. Təbii ki, belələrinə nəinki hakimiyyəti və xalqı, heç kiçik ”JEK”ləri belə həvalə etmək olmaz.

Bu baxımdan, bolşevik təfəkküründə qalan o zamankı iqtidar təmsilçilərinin taktorçuları, savadsız məktəb müəllimlərini vəzifələrə təyin etmələri də qeyd edilən dəhşətlər sırasına yazıla bilər. Ona görə də 4 iyun hadisələrindən danışarkən Yevlax yun fabrikinin rəhbərinin korpus komandiri vəzifəsinə qədər yüksəldilməsi də əslində AXC-Müsavat hakimiyyətinin boynunda qalmaqda davam edir.

”Surət Hüseynovun da xidmətlərinə qiyməti məhz AXC hakimiyyəti verib, ona Milli Qəhrəman adı verib, onu korpus komandiri, prezidentin Qarabağ üzrə səlahiyyətli nümayəndə, baş nazirin müavini vəzifələrinə təyin edib...” Bu fikirləri AMİP-in lideri Etibar Məmmədov media qurumlarından birinə verdiyi açıqlamasında bildirib.

### ”Ordudan daxili məsələlərdə pralamentin qərarı olmadan istifadə edilibsə, bu da qanun pozuntusudur”

”Son vaxtlar bəzi internet resurslarında belə fikirlər də səsləndirilir ki, guya ”Tufan” kod adlı əməliyyatdan Elçibəyin bir dövlət başçısı kimi xəbəri olmayıb, həmin planı əsasən keçmiş parlament sədri və baş nazir hazırlayıb və icra etməyə cəhd göstərib. Hərçənd onlar da o dövrdə belə bir əməliyyatın olduğunu və onun hazırlanması və icrasında iştiraklarını inkar edirdi... Bu haqda nə deyə bilərsiniz?” sualını isə partiya lideri belə cavablandırıb: ”Əslində həmin əməliyyat haqda hadisələr baş verəndən sonra mən də, digərləri də məsələ qaldımışıq. Sual etmişik ki, bu əməliyyat kim tərəfindən hazırlanıb, kim tərəfindən idarə olunub və silahlı qüvvələr doğrudan da prezidentin xəbəri olmadan istifadə olunubsa, bu da cinayətdir. Həmçinin ordudan daxili məsələlərdə pralamentin qərarı olmadan istifadə edilibsə, bu da qanun pozuntusudur”.

”Çox adam deyirdi ki, mənim heç nədən xəbərim yoxdur. Lakin yadınızdadrsa, 25 il sonra iyun hadisələri ərəfəsində keçirilmiş Təhlükəsizlik Şurasının iclasının protokolları mətbuatda dərc olundu və məlum oldu ki, elə həmin Şuranın sədri prezident Elçibəy özü olub. Bu məsələlər dövlət başçısının yanında müzakirə olunub və qanuna zidd olaraq ayrıca sərəncam olmadan Ali Sovetin sədri və baş nazir də bu məsələlərdə rəhbər rol oynayıblar. Yəni qanunsuzluq çox olub və heç kəs də bunu boynundan atmamalıdır. AXC iqtidarında sözügedən əməliyyatdan hamının da xəbəri olub. Sadəcə, həmin əməliyyatı uğursuz və bacarıqsız hazırlayıblar və nəticədə də ölkə də həmin qarşıdurma və xaos yaranıb”, deyə Etibar Məmmədov bildirib.

### Ara-sıra xalqa, ictimai rəyə həmin quldur hakimiyyətin törətdiklərini xatırlatmaq yerinə düşür...

Lakin görünən daha bir məsələ budur ki, 30 il torpaqlarımızın işğal altında qalmasında, dağıdılaraq talan eidlməsində, qaçqın və köçkünlərimizin torpaq həsrəti ilə mənəvi iztirablar işçində yaşamalarında və s. olayların hər birində bilavasitə günahkar olanlar AXC-Müsavat cütlüyünün iqtidarı olub. Və eyni zamanda, Surət Hüseynov kimi yararsız şəxslərin də hakimiyyət başında otuzdurulmaları və sonrakı qanlı-qadalı hadisələrin baş verməsi də bu konteksti əhatə etməkdədir. Və nə yaxşı ki, bütün bunlara da son qoyuldu və artıq Azərbaycan müstəqil, qalib ölkə olaraq dünya miqyasında öz sözünü deməkdədir. Etibar Məmmədova gələndə isə onun cəbhəçiləri və müsavatçıları hədəfə alaraq həqiqəti söyləməsi əslində reallığı göstərmək məqsədini daşıyır. Bu baxımdan, ara-sıra xalqa, ictimai rəyə həmin quldur hakimiyyətin törətdiklərini xatırlatmaq yerinə düşür...

***Rövşən RƏSULOV***

---

# “Əli Kərimli və trol dəstəsi öz amplualarındadırlar”

**“Son vaxtlar dünyada baş verən hadisələr xalqları çətin vəziyyətə salmış, öz vətənlərini tərk etmələrinə məcbur qalıblar. Dünya çalxalandığı bir dövrdə Ali Baş Komandanımızın rəhbərliyi altında ərazi bütövlüyümüzü bərpa edərək qalib ölkəyə çevrildik”. Bunu millət vəkili Azər Badamov ”Səs” qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə, ölkəmizdə siyasi sabitlik təmin olunmuş, vətəndaşların sosial vəziyyətinin qlobal arenada qorunması istiqamətində davamlı tədbirlər icra olunur: ”Bu gün nail olunduğumuz sabitlik və təhlükəsizlik hər hansı başqa nə iləsə müqayisə olunmazdır. Amma çox təəssüf ki, Əli Kərimli və onun trol dəstəsi uğurlarımızı və nailiyyətlərimizə sevinmək əvəzinə xarici dairələrin dəstəyi ilə öz amplualarında qalaraq insanları sosial şəbəkələrdə dövlətə qarşı meydanlara çıxmağına çağırışlar etməkdədir. Onlar görmürlər ki, ölkəmiz və cəmiyyət inkişaf edib, dövlətin qazandığı uğurları ilə fəxr edir. Çox təəssüf olsun ki, bu gün radikal müxalifətdə dayananlar ümumi inkişafdan geri qalıblar. Yaxşı olardı ki, gözünü açıb dünyada baş verənlərə bir nəzər salıb bu günə şükür etsinlər”.

***Gülyana***

---



**Elçin Bayramlı**

# Elmin səmimiliyinə niyə inanmıram?

***Tez-tez mətbuatda ziddiyyətli informasiyalarla qarşılaşırıq. Filan şey insana xeyirlidir, filan şey zərərlidir, alimlər sübut ediblər... qəbilindən antipod məlumatların sayı-hesabı bilinmir. Hansısa mərkəzlərdən məqsədli məlumatlar yayılır və bizim media da ya bilərəkdən, ya da bilməyərəkdən bunu yayıb qlobal quldur dəstəsinin dəyirmanına su tökürlər.***

Təsəvvür edin- mediada belə bir informasiya gedir- ”Sən demə, şokalad insan sağlamlığının ən yaxın dostu imiş, alimlər sübut ediblər ki, hər gün 2-3 dəfə şokalad yeyən adam daim şən əhvalda olur, qan dövranı yaxşı işləyir, əsəbiləşmir, həzm prosesi normal gedir...”

İnsanların yaralı yerindən yapışıblar. Ay qardaş, hansı ölkənin, hansı alimlər, hansı institut, hansı elmi mərkəz, mənbə haradır, nə vaxt sübut olunub... cavab yoxdur. İnformasiya və ya qonorar xatirinə informasiya . Azacıq ağıllı adama aydındır ki, bu kimi xəbərlər məqsədli şəkildə bəzi şirkətlər tərəfindən ortaya atılır, amma bizim mətbuatda diletantlar üstünlük təşkil etdiyindən mahiyyətinə varmırlar. Lakin ədalət naminə deyək ki, bəziləri hərif deyil, məqsədli şəkildə belə məlumatları yayır.

Bir gün deyirlər, filan şey xeyirlidir, bir həftə sonra deyirlər ki zərərlidir. Burda informasiya savaşı getdiyini bilməyə nə var? Bir transmilli şirkət öz məhsulunu satmaq üçün alimlərə pul verib saxta rəy alır, rəqibi isə pulla başqa alimləri kirayə tutub bunu elmi şəkildə araşdırtdırır və əksini dedirtdirir.

Genetik modifikasiyanın bəşəriyyətin və təbiətin gen məbədinə həyasızcasına təcavüz olduğunu bilmirlərmi guya? Son illərdə bitki, heyvan aləminə müdaxilə insanın genetik strukturunu dağıtmaq və bioloji sistemin darmadağın edilməsinədək irəiləyib. GMO əkinlər dünyanı başına götürür, təbii sortlar yoxa çıxarılır, torpaq təbii təyinatını dəyişir, ekoloji faciə yaranır, insan qidası sünileşir və orqanizm təbiətdən almağa məcbur oldugu elementləri ala bilmir. Nəticələri ağır olur...

Müasir texnologiyanın birmənalı və istisnasız olaraq hamısı insan sağlamlığına, təbiətə ciddi zərər verir. Məsələn, mobil rabitə, nüvə obyektləri, GMO, kimvəyi istehsalın əhatə dairəsinin genişlənməsi, 3D filmlərin və virtual rellığın beyinə dağıdıcı təsiri kimi saysız problemlər elmin ”nailiyyətləridir”. Soyuducu sistemlərin hətta ozon qatını belə dağıtdığını söyləmək isə artıqdır.

Qısası, hazırda elm sürəkli olaraq insanlara və təbiətə zərər verən texnologiyalar kəşf etməklə məşğuldur. Çünki elmi mərkəzlər konkret olaraq qlobal dairələrin əlində alətdir. Məhz bu səbəbdən bizim bir özəl televiyada əvvəl deyirlər ki, ”alimlər sübut ediblər ki, ana südü zərərli imiş”, ardınca da deyilir, ”alimlərin son araşdırmalarına görə, alkoqollu içkilər insana xeyrlidir”...

Mobil telefonların dəhşətli zərərlərini ortaya çıxaran alimlərin iri mobil telefon istehsalçıları tərəfindən pulla ələ alınması və ciddi rüşvət müqabilində bunu gizlətməsi rəzaləti ortaya çıxandan sonra artıq heç nəyə inanmağa dəyməz. Özü də bunun ÜST-də baş verməsi lap təəccüblü idi.

Sizi bilmirəm, şəxsən mən daha elmə inanmıram, daha doğrusu elmə inanıram, onun səmimiliyinə inanmıram. Ziddiyyətli informasiya axını içində başımız itəndə bütün bu məlumatları bir kənara qoyub, dədə-babadan sınaqdan çıxmış ənənəvi sağlam həyat tərzini, qidalanma, təbii geyim, təbii ev quruluşunu... xatırlayıram, heç bir maddi marağı olmayan köhnə alimlərin dedikləri ilə, indiki pula satılan ”alimlərin” dediklərini tutuşdururam.

Kapitalizm dünyasında hər şey biznes maraqları naminə qurban verilir. Əsas məsələ mümkün qədər tez və sürətlə, daha çox pul qazanmaqdan ibarətdir. Loru dildə desək, dünya elmi mərkəzləri böyük korporasiyaların əlində alətdir. Dünya alimlərinin böyük əksəriyyəti ələ alınmış və qlobal maqnatların biznes maraqlarına tabe etdirilmişdir. Hansısa bir dərman preparatı uzun onilliklər insanların qarnına doldurulur və sonra məlum olur ki, bunun çox dəhşətli zərərləri var imiş. Kofenin, çayın, şokaladın, çörəyin, şəkərin, ətin, duzun... xeyiri və zərəri haqda uzun sürən elmi informasiya müharibələri gedir. Əmilər, xalalar, bir qərara gəlin, bunlar zərərlidir, yoxsa faydalı?

Alimlərə zada inanmayın, yalnız təbii, müdaxilə olunmamış qidalara, təbii geyimlərə, təhlükəsiz texnologiyalara üstünlük verin. Məsələn, mikrodalğalı sobada yeməyi qızdırmaq kimi dəhşətli cinayətə yol verməyin. Mobil telefonu beyninizə sıxıb uzun-uzadı qeybət eləməyin. Süni qidalardan, GMO-dan aralı durun, saxta dərmanların əvəzinə təbii müalicə üsullarına üstünlük verin. ”Televizorda deyiblər” söhbətini qurtarın. Yoxsa, vəziyyət yaxşı olmayacaq...

# “Status gündəmə ABŞ və Fransadakı erməni diasporundan gətirilir”

**Andrey Fyodorov: Erməni diasporu Fransa və ABŞ-da siyasi məkanda işləyir, siyasətə təsir edir. Rusiyada bu mümkün deyil, yalnız mediada çox səmərəli işləyir**



Ermənistan müxalifətinin etiraz aksiyaları səngiyir. Ermənistanın eks-prezidenti Serj Sarkisyan bildirib ki, iyunun 14-də müxalifət lideri İşxan Saqatelyan aprelin 17-dən bəri İrəvanda keçirilən etiraz aksiyalarının bəzi nəticələrinə yekun vuracaq. Ermənistanda müxalifətlə baş verənlər və onun ölkəni və regionu nə ilə təhdid etdiyini ”Moskva-Bakı”ya müsahibəsində Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov şərh edib. Ekspertin müsahibəsini oxucularımıza təqdim edirik.

***- Andrey Vladimiroviç, bir tərəfdən, Ermənistandakı müxalifət, deyəsən, daha radikal üsullara əl atmağa başlayıbfaşist əlaltısı Qaregin Njdenin imicindən istifadə edib əhalinin hansısa vətənpərvərlik hisslərinə görə sərt təxribata əl atmağa çalışır. Bu qüvvələr xarici tərəfdaşlar üçün bəzi qəti şərtlər irəli sürüblər, deyirlər ki, siz bizimlə deyilsinizsə, deməli, Ermənistanın əleyhinəsiniz. Digər tərəfdən, müxalifət öz hərəkətlərinin tezliyini xeyli azaldıb. Nə baş verir?***

- Fakt budur ki, istənilən ölkədə hansısa müxalifət küncə sıxışdırılanda belə davranır. Ermənistanda müxalifət öz gücünü hiss etmir. Onun etdiyi şey çarəsizlikdəndir. Dayansa, müxalifət olaraq öləcək. Etirazları qeyri-müəyyən, kütləvi etmək ideyası iflasa uğrayır. İstənilən ölkədə istənilən müxalifət ancaq mübarizədə mövcuddur. Əgər skamyada, evdə sakit otursan, Sovet vaxtı dediyimiz kimi, artıq ”mətbəx müxalifəti” adlanacaq. ”Mətbəx müxalifəti” isə nəticə verə bilməz. Təbii ki, nəticə yoxdursa, öz şüarlarınızla küçələrdə sonsuz dayanmaq və ya sonsuz yürüşlər təşkil etmək mümkün deyil. Eyni musiqini eyni skripkada çox uzun müddət ifa edə bilməzsiniz. Məqsədə çatmaq üçün alətləri dəyişmək, obrazı, obrazları dəyişmək, tamamilə yeni siyasi model yaratmaq lazımdır. Erməni müxalifəti bunu etməyə çalışır. Müxalifət o zaman yaşayır ki, onun fəaliyyətinin ən azı aralıq nəticələri var. Sonra ya dağılır, ya da tamamilə yox olur. Məsələ burasındadır ki, müxalifət parçalananda onun yeni formalaşan hissələrindən biri artıq söz və hərəkətlərində ultra radikal, son dərəcə qətiyyətli xarakter alır. İndi isə erməni müxalifəti məhz bu məqama gəlib çatıb ki, bütün bu gəzintilərin, çağırışların, mərsiyələrin əvəzinə ölkə üçün ən pis şeyradikal üsullara keçid baş verə bilər.

Müxalifət təzyiq göstərəcək, xəyali mənzərə yaradacaq ki, qisas lazımdır, mübarizə aparsaq, qələbə bizim olacaq. Bu, Ermənistan üçün səciyyəvidir, Paşinyan hakimiyyətindən əvvəl də belə olub. Erməni cəmiyyətində hələ də çoxdan formalaşmış yüksək inam var ki, Qarabağsız Ermənistan olmaz. Erməni cəmiyyətinin müəyyən bir hissəsi qisas almaq istəyir, müharibədən əvvəlki əhval-ruhiyyədədir. Belə bir illüziya içindədirlər. Və bütün bunlardan sonra onlar üçün bundan yaxşı olmayacaq. Axı regionda vəziyyət dəyişib. Və müharibədən əvvəlki bu hiss Ermənistanın özünü içəridən parçalayır.



Alov sönəndə həmişə iki seçim var: alovun tamamilə sönməsinə icazə vermək və ya odun atmaq və onu yelləmək. Radikallaşma Ermənistan üçün son dərəcə təhlükəlidir, çünki bu, yaxşı heç nəyə gətirib çıxarmayacaq. Ermənistan cəmiyyətinin parçalanması ona gətirib çıxaracaq ki, müxalifət ümummilli dəstək alacağına ümid edə bilməyəcək. Bu isə o deməkdir ki, ölkədə növbəti daxili böhran yaranacaq. Yəni müxalifət ölkəni böhrana aparır. Və bundan heç nə qazanmayacaq. Cəmiyyəti radikallaşdıran müxalifət onu qanun çərçivəsində, sivil siyasət çərçivəsində saxlaya bilməyəcək. Ermənistana bir ölkə kimi indi bütün bunlar lazım deyil. Üstəlik, 2-ci Qarabağ müharibəsindən sonra Ermənistan, yumşaq desək, heç də yaxşı iqtisadi vəziyyətdə deyil. Və bunu unutmaq olmaz. İndi heç kim deyə bilməz ki, Ermənistanda hər şey yaxşıdır və ölkə uğurla inkişaf edir.

İndi Ermənistana daxili sabitlik və ən yüksək səviyyədə gələcək fəaliyyət planının hazırlanması lazımdır. İrəli-geri çəkinmədən, indiki Ermənistan hakimiyyətinin nəyi bacarıb, nəyi edə bilməyəcəyini aydın başa düşmək. Məncə, Paşinyanın səhvləri ondan ibarətdir ki, o, öz siyasətini əhaliyə tam izah etmir, əslində isə bunu daha çox etməlidir.

Yeri gəlmişkən, xaricdəki erməni diasporu da revanşist əhval-ruhiyyəni qızışdırmağa çalışır. Diasporda Ermənistanın müharibədə məğlubiyyəti hələ də hiss olunmayıb. Diaspora həmişə Qarabağ mövzusu ilə yaşayıb. Və bu mövzunu yaşamağa davam edəcək və təbii ki, müxalifəti dəstəkləyəcək.

Lakin regionda vəziyyəti pozmaq cəhdləri beynəlxalq oyunçular tərəfindən də qəbul edilmir. Ukrayna ilə bağlı indiki vəziyyətdə nə Rusiyaya, nə də Qərbə başqa qaynar nöqtə lazım deyil. Əlavə baş ağrısına ehtiyac yoxdur. Ona görə də hesab edirəm ki, beynəlxalq oyunçuların bu cür mövqeyi Ermənistanda vəziyyətin daha radikal inkişafı üçün çəkindirici amil olacaq.

***-Ancaq müxalifət hər gün əhaliyə mənəvi təsir göstərməsəydi, yürüşlər təşkil etməsəydi, o zaman xalq özü sülh gündəmini daha çox qəbul etməyə başlayacaqdı...***

- Bəli, məhz belədir...

***- Sizcə, Paşinyan ölkədəki vəziyyəti müxalifətin təsiri altında saxlayır?***

-Bu gün məsələ, əslində, elə qoyulur ki, Paşinyan ölkədəki vəziyyəti qoruyub saxlaya bilsin, Paşinyan yox, müxalifət zəif olsun. Bəlkə də səhv edirəm, amma vəziyyətin radikallaşacağı təqdirdə baş nazirin hər şeyi öz nəzarətində saxlaya biləcəyinə çox da əmin deyiləm. Çünki Ermənistanda adətən radikallaşma, parlament daxilində radikallaşma deyil, küçələrdə radikallaşmadır. Və tarixin göstərdiyi kimi, bu, bəzən gözlənilməz inkişaf ssenariləri olan bir şeydir. Ən əsası isə radikallaşma kontekstində artıq xarici faktor, məsələn, Rusiyadan və ya Aİ-dən, ABŞ-dan təsir faktoru minimuma endirilir. Küçə idarəsiz qalacaq.

***- ABŞ və Aİ vaxtaşırı deyəndə ki, Qarabağın statusu məsələsi həll olunmalıdır, bu, təxribat deyilmi? Bu, Ermənistanın gündəmidir. Əgər Qərbin regionda eskalasiyaya ehtiyacı yoxdursa, niyə belə deyilir?***

- Bu ermənilərin gündəmi deyil. Bu gündəm əsasən kənardandiasporadan gəlir. ABŞ və Fransa bu mövzunu qaldıranda isə diasporun təsiri olur. Fransadakı diaspor ən güclüsüdür. Bunu etiraf etmək lazımdır. Ancaq Rusiyada bu məsələdə hər şey bir qədər fərqlidir. Rusiya Federasiyasında erməni diasporu siyasi sahədə deyil, əsasən media məkanında işləyir. Fransa və ABŞ-da isə o, məhz siyasi məkanda işləyir, ciddi lobbiçilik imkanlarına malikdir, siyasətə təsir edir. Rusiyada bu mümkün deyil. Amma Rusiya Federasiyasının informasiya məkanında erməni diasporu çox səmərəli işləyir.

Diasporsuz Qarabağ mövzusu bu gün bizim indi təsvir etdiyimiz miqyasda- Aİ, Fransa və ABŞ-ın marağı ilə mümkün deyil. Diaspor bu mövzunun aparıcı qüvvəsidir. Bu məsələdə bütün dünyadakı erməni diasporu birləşir. Və uzun müddət bu mövzunun beynəlxalq səviyyəyə qaytarılması cəhdlərini müşahidə edəcəyik və Moskvanın köməyi ilə əldə olunan üçtərəfli bəyanatlara və razılaşmalara şübhə ilə yanaşmağa çalışacaqlar.

***- Rusiya bu gün Qarabağın statusu ilə bağlı hansı mövqedədir? Lavrov İrəvana gəldi və jurnalistlər ondan statusunu soruşmağa çalışsalar da, o, bu mövzunu şərhsiz tərk etdi...***

- Düşünürəm ki, Rusiya bu mövzunu qəsdən şərhsiz buraxmağa davam edəcək. Bəli, Moskvanın ilkin mövqeyi ondan ibarətdir ki, məsələ sonra baxıla bilər, birinci vacib məsələ nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması, sərhədin delimitasiyası və demarkasiyası məsələsinin həllidir. Bundan sonra status kimi digər məsələlər müzakirə oluna bilər.

***- Rusiyanın xarici işlər naziri Sergey Lavrov İrəvanda qalmasına nə üçün kifayət qədər çox- təxminən 3 gün vaxt ayırdı ?***

- Bu gün bizim üçün Ermənistanda daxili sabitlik çox vacibdir. Bu məsələ isə respublikada cərəyan edən hadisələr kontekstində müzakirə edilməli idi. Cənubi Qafqaz Rusiyaya heç vaxt indiki qədər lazım olmayıb. Ermənistan-Azərbaycan nizamlanması üzrə üçtərəfli sazişlərin icrasının müzakirəsi də vacib idi. Bundan əlavə, beynəlxalq vəziyyət, anti-Rusiya sanksiyaları fonunda Aİİ çərçivəsində əməkdaşlığın inkişafı məsələlərini müzakirə etmək lazım idi. Yenə də struktur çərçivəsində iqtisadi inteqrasiya o qədər də asan deyil. Və bu məsələni həll etmək lazımdır. Vahid valyutaya keçid mövzusu uzanır. Və hamı başa düşür ki, müəyyən mərhələdə iqtisadi inteqrasiya hansısa siyasi aspektlərlə tamamlanacaq.

***Müsahibə - Nana Xoştariya***
***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
Səs
15 iyun
2022-ci il

# Çempionlar Liqasında ”Qarabağ”ın ilk rəqibi açıqlandı




**Dünən İsveçrənin Nyon şəhərində Çempionlar Liqasının 1-ci təsnifat mərhələsinin püşkatma mərasimi keçirilir. Qol.az xəbər verir ki, Bakı vaxtı ilə saat 14:00-da başlayan püşkatma zamanı təmsilçimiz ”Qarabağ”ın da rəqibi müəyyənləşib. ”Səpələnmiş”lər səbətində olan Azərbaycan çempionunun rəqibi ”səpələnməmişlər” səbətində yer alan Polşa çempionu ”Lex” olub.**

Qeyd edək ki, ”Lex” ”Qarabağ”ın 5 potensial rəqibi arasında reytinqinə görə ən güclüsü olub. İlk matç səfərdə keçiriləcək. Qeyd edək ki, 1-ci təsnifat mərhələsinin oyunları 5/6 və 12/13 iyulda olacaq.

# Xavyer Tebas:

## "Barselona" pul qazanan maşındır"

La Liqanın prezidenti Xavyer Tebas ”Barselona”nın maliyyə vəziyyətini medianın göstərdiyi kimi kritik hesab etmir. Qol.az xəbər verir ki, bu barədə o, ”Diario Sport”a açıqlamasında deyib:

”Barselona” müflis deyil, onlar pul qazanan maşındır, aktivlərini satmalı olacaq. Amma heç bir halda müflis deyil. ”Barselona” vəziyyət üzərində işləyir və ümid edirəm ki, hər şey düzələcək, çünki baş verənləri bəyənmirik. Amma klub müəyyən variantlardan istifadə etsə, transferlər edə biləcək”.




## Tofiq Mirzəyev ”Xalq artisti” fəxri adı və ”Şöhrət” ordeni ilə təltif edilib



Tofiq İbrahim oğlu Mirzəyevə ”Xalq artisti” fəxri adı verilib. SİA xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb. O, Azərbaycan kino sənətinin inkişafında xidmətlərinə görə mükafatlandırılıb. Eyni zamanda dövlət başçısının digər sərəncamı ilə T.Mirzəyev Azərbaycan kinematoqrafiyasının inkişafında səmərəli fəaliyyətinə görə ”Şöhrət” ordeni ilə təltif edilib. Qeyd edək ki, iyunun 16-da T.Mirzəyevin 90 yaşı tamam olur.

# Avtomobillərin bahalaşmasının əsas səbəbi nədir?

## İqtisadçı açıqladı





**“Azərbaycanda avtomobillərin bahalaşmasının əsas səbəbi dünya avtomobil bazarında baş verən qiymət artımları ilə əlaqədardır”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli bildirib.**

Onun sözlərinə görə, Azərbaycanın daxilində avtomobil sənayesi yoxdur, bu səbəbdən də ölkə də avtomobil istehsal olunmur: ”İlkin alış zamanı avtomobillər xaricdən idxal edilir. Təkrar bazarda isə köhnə maşınların alınıb-satılması prosesi həyata keçirilir. İlkin bazarda da qiymətlər qalxanda təkrar bazarda da qiymətlər yüksəlir. İstər ilkin bazarda, istərsə də, yeni avtomobillərin qiymətində baş verən qiymət artımının əsas səbəbi xaricdən alınan avtomobillərin dəyərinin artması nəticəsində baş verir. Təbii ki, bununda bir sıra səbəbləri var. Lakin əsas səbəb qlobal dəyər zəncirində yaranan problemlərdir. Material və daşınmanın bahalaşması və s. bütün bunlar pulun dəyərini itirməsinə eyni zamanda bu sahədə olan bahalaşmaya gətirib çıxardır”.

*Banuçiçək Hüseynli*

# Azərbaycanda 6 günlük dərs sisteminə nə zaman keçiləcək?

**“432 orta ümumtəhsil məktəb var və burada 1,6 mindən çox şagird təhsil alır. Etiraf edək ki, hazırda tədris yükü kifayət qədər çoxdur və bu 5 günlük tədris günlərində şagirdlər 7, bəzən 8 dərs məktəbdə olurlar”. Bunu SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov bildirib.**



Onun sözlərinə görə, orta ümumtəhsil müəssisələrinin 5 və ya 6 günlük olması ilə bağlı qərar Təhsil Nazirliyi tərəfindən deyil, pedaqoji şuralar tərəfindən müzakirə olunur: ”Çünki bu qərar məktəbin özü tərəfindən veriləcək bir qərardır, eyni zamanda bu qərar istənilən zaman dəyişdirilə bilər. Məktəblərin 6 günlük olması dərs yükünün azalmasına gətirib çıxardır. Yəni 5 gün məktəb olduğu təqdirdə şagirdlər 7 saat dərsdə otururdusa, 6 günlük olanda isə artıq 5-6 saat dərsdə otururlar. Təbii ki, şagirdlərin istirahət hüququ var və biz bilirik ki, dərs günləri arasında iki gün fasilə şagirdlərin 5 gün verdikləri enerjini geri qaytarmasına kömək edir. Lakin bəzən 2 gün istirahət olduğu zaman müəyyən sui-istifadə hallarına yol verirlər. Dünya təcrübəsinə görə şagirdlərin 6 gün dərsə getməsi daha məqbul hesab edilir. Çünki onların həm dərs yükləri az olur, həm də onların kifayət qədər dərs oxumağa vaxtları qalır. Lakin bəzi hallarda biz görürük ki, 5 gün dərs olandan sonra 2 gün fasilə verildikdə şagirdlərdə tənbəllik yaranır. Bakı şəhərində 320 məktəb var və onların arasında müəyyən məktəblər 6 günlük dərs sisteminə keçid ediblər”.

*B. Hüseynli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**